
Doğma, canım-varlığım qədər sevdiyim
Azərbaycanım mənim qibləgahımdır

100 ilin qəzeti

# ŞƏRQ QAPISI

Sayı: 19 (24.505)
23 may 2026-cı il, şənbə

www.serqqapisi.az

Təsisçi: Naxçıvan Muxtar Respublikasının Ali Məclisi


# WUF13: Azərbaycanın qlobal urbanizasiya gündəliyinə təqdim etdiyi yeni inkişaf modeli




*Mayın 17-dən etibarən bütün dünyanın diqqəti Azərbaycanın paytaxtına yönəlib. Bakı növbəti mühüm beynəlxalq tədbirə – Birləşmiş Millətlər Təşkilatının ən nüfuzlu qlobal urbanizasiya platformalarından biri olan Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyasına (WUF13) ev sahibliyi edib. “Hər kəs üçün yaşayış yerləri: təhlükəsiz və dayanıqlı şəhərlər və yaşayış məskənləri” mövzusuna həsr olunan bu mötəbər tədbir BMT-nin Məskunlaşma Proqramı – UN-Habitat tərəfindən təşkil olunur və şəhərsalma, dayanıqlı inkişaf, inklüziv yaşayış mühiti kimi qlobal əhəmiyyətli məsələlərin müzakirəsi üçün mühüm platforma rolunu oynayır. Dünyanın müxtəlif ölkələrindən şəhərsalma sahəsində tanınmış ekspertlərin, memarların, dövlət rəsmilərinin və beynəlxalq təşkilat nümayəndələrinin iştirak etdiyi forum qlobal urbanizasiya çağırışlarının, dayanıqlı inkişaf strategiyalarının və gələcəyin şəhər modellərinin müzakirəsi baxımından xüsusi əhəmiyyət daşıyır. Bu mötəbər tədbir həm Azərbaycanın beynəlxalq nüfuzunun göstəricisidir, həm də Bakının qlobal dialoq və əməkdaşlıq məkanı kimi rolunun daha da gücləndiyini təsdiqləyir.*

Səhifə ➡ 2

# Türküstan Zirvəsi:

## Türk Dövlətləri Təşkilatı strateji əməkdaşlıqdan qlobal güc mərkəzinə doğru



Səhifə ➡ 3




# WUF13: Azərbaycanın qlobal urbanizasiya gündəliyinə təqdim etdiyi yeni inkişaf modeli

(əvvəli 1-ci səhifədə)

### WUF13 Azərbaycanın təşkilatçılıq təcrübəsinə beynəlxalq etimadı gücləndirir

Azərbaycanın qazandığı zəngin təşkilatçılıq təcrübəsi paytaxt Bakının Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyasına yüksək səviyyədə ev sahibliyi etməsinə möhkəm zəmin yaradıb. Bu baxımdan, onu da diqqətə çəkmək yerinə düşər ki, BMT-nin Məskunlaşma Proqramı və Azərbaycan Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin birgə əməkdaşlığı sayəsində ölkəmizdə üç milli şəhərsalma forumu keçirilib. Başqa sözlə, digər strateji sahələrdə olduğu kimi, şəhərsalma istiqamətində də beynəlxalq tədbirlərin keçirilməsi baxımından respublikamız zəngin təcrübə qazanıb. Belə ki, 2022-ci ildə Ağdamda, 2023-cü ildə Zəngilanda və 2025-ci ildə Xankəndidə təşkil olunan Azərbaycan Milli Şəhərsalma forumları dünyanın müxtəlif ölkələrindən olan mütəxəssislərin təcrübə mübadiləsi və dayanıqlı inkişaf naminə əməkdaşlıq əlaqələrinin genişləndirilməsi üçün uğurlu platformaya çevrilib. Təşkilatçılıq baxımından, xüsusilə COP29 konfransında qazanılan təcrübə və iqlim diplomatiyası sahəsindəki tarixi nailiyyətlər təqdirəlayiqdir. Konfrans bir daha sübut etdi ki, Vətən müharibəsindən sonra regionda formalaşan yeni reallıqlar fonunda Azərbaycan etibarlı tərəfdaş və məsuliyyətli ev sahibi kimi qlobal məsələlərin həllində nəticəyönümlü fəaliyyət nümayiş etdirir. Bu baxımdan, WUF13-ü beynəlxalq ictimaiyyətin ölkəmizə artan etimadının göstəricisi və COP29-un məntiqi davamı kimi dəyərləndirmək olar. Həm COP29, həm də WUF13 Azərbaycanın artıq təkcə regional deyil, həm də qlobal əhəmiyyətli problemlərin müzakirə olunduğu mühüm dialoq məkanına çevrildiyini və bu prosesin davamlı xarakter aldığını bir daha təsdiqləyir.

Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyasının açılış mərasimində çıxışı zamanı Prezident İlham Əliyev də Azərbaycanın beynəlxalq tədbirlərə yüksək səviyyədə ev sahibliyi etmək bacarığını xüsusi vurğulayaraq ölkəmizin dayanıqlı inkişaf, müasir şəhərsalma və inklüziv yaşayış mühitinin formalaşdırılması istiqamətində həyata keçirdiyi siyasətin prioritetlərindən bəhs edib. Dövlət başçısının çıxışında səsləndirilən fikirlər Azərbaycanın qlobal gündəmdə artan rolunu və beynəlxalq əməkdaşlığa verdiyi töhfəni bir daha nümayiş etdirir. Sitat: ***“Bu, ilyarım əvvəl Azərbaycanda keçirilmiş COP29-dan sonra ikinci ən böyük beynəlxalq tədbirdir və ümid edirəm ki, Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyasının nəticəsi COP29 qədər uğurlu olacaq. Düşünürəm ki, Bakıda bu günlər ərzində, ilk dəfə ölkəmizə səfər edən qonaqların əksər hissəsi ölkəmizi və şəhərimizi daha yaxşı tanımaq, şəhərsalmanın inkişafı sahəsində Azərbaycanda görülən işləri öz gözləri ilə görmək imkanını qazanacaqlar”.***

Bakıda keçirilən Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyası müasir urbanizasiya proseslərinin artıq təkcə texniki-planlaşdırma məsələsi deyil, qlobal idarəetmə, geosiyasi sabitlik, ekoloji təhlükəsizlik və sosial transformasiya ilə sıx bağlı kompleks sistemə çevrildiyini nümayiş etdirir. Forumda 182 ölkədən 45 mindən çox iştirakçının qeydiyyatdan keçməsi şəhərlərin gələcəyinin artıq milli sərhədləri aşan ortaq məsələ olduğunu və Azərbaycanın bu prosesdə aparıcı mövqedə dayandığını göstərir.

### WUF13-də Bakı modeli: tarixdən müasirliyə urban inkişaf yolu

Azərbaycanın ev sahibliyi etdiyi bu forumda Bakı şəhərinin tanıdılması, təqdimatı xüsusi çəkiyə malikdir. Bu xüsusda onu vurğulamaq olar ki, Bakı yalnız coğrafi mövqeyi ilə deyil, həm də tarixi-sosial transformasiya dinamikası ilə urban inkişafın çoxsəviyyəli modelini nümayiş etdirir. Şəhərin inkişaf trayektoriyası göstərir ki, burada urbanizasiya xətti irəliləyişlə paralel şəkildə, müxtəlif tarixi dövrlərin bir-birinin üzərinə harmonik şəkildə yerləşdiyi zəngin və çoxqatlı bir struktur kimi formalaşıb. İçərişəhərin orta əsr şəhər quruluşu, XIX əsr neft bumu dövrünün Avropa memarlıq üslubu və müasir şəhər landşaftı eyni məkanda bir-biri ilə əlaqəli şəkildə mövcuddur. Bu, Bakının təkcə müasir şəhər kimi deyil, həm də tarixi davamlılıqla müasirliyin birləşdiyi bir şəhər modelinə yaxın olduğunu göstərir. Sözügedən yanaşma şəhərin sıfırdan qurulması deyil, mövcud şəhər quruluşunun zamanla uyğunlaşdırılması və dəyişdirilməsi üzərində qurulduğunu ifadə edir.

Bakı şəhərinin ekoloji transformasiyası da şəhərsalma siyasətinin başqa bir strateji xəttini təşkil edir. Neft sənayesinin tarixi təsiri nəticəsində ciddi ekoloji deqradasiyaya məruz qalmış şəhər mühitinin yenidən qurulması yalnız fiziki təmizləmə deyil, iqtisadi modelin dəyişdirilməsi ilə paralel aparılır. “Qara şəhər”dən “Ağ şəhər”ə keçid sənaye şəhərindən postsənaye, xidmət və yaşayış yönümlü şəhər modelinə transformasiyanın simvolik ifadəsidir. Bu transformasiya həm də şəhərin qlobal investisiya xəritəsində mövqeyinin dəyişməsini göstərir. Həmçinin şəhərsalmanın müasir və innovativ təzahürlərindən biri də Xəzər sahilində formalaşdırılan “Sea Breeze” yaşayış və istirahət məkanıdır. Bu layihə yalnız turizm və əyləncə zonası kimi deyil, həm də şəhərsalmanın çoxfunksiyalı və dayanıqlı modelinin nümunəsi kimi diqqət çəkir. Burada yaşayış, istirahət, xidmət, ticarət və sosial infrastruktur elementləri vahid urbanistik konsepsiya əsasında birləşdirilib. Müasir memarlıq həlləri, yaşıllıq zonalarının genişliyi, piyada yönümlü məkanların təşkili və ekoloji yanaşmalar “Sea Breeze”i yeni şəhərsalma yanaşmalarının praktik nümunəsinə çevirir. Prezident İlham Əliyev forumun sessiyasında çıxışı zamanı bütün bu məqamlara toxunaraq 20 il ərzində Bakıda böyük urbanizasiya proseslərinin getdiyini diqqətə çatdırdı: ***“Bakı çox çirklənib və Bakının Qara şəhər, Bibiheybət və Böyükşor kimi bəzi hissələrini qeyd etsəm, ola bilsin, əcnəbilər üçün bu, bir məna kəsb etmir. Lakin əgər vaxt tapıb həmin yerləri ziyarət etsəniz, bəzi videomateriallara və ya şəkillərə baxsanız, onların 20 il öncə və indi necə göründüyünü başa düşərsiniz və Bakıda ətraf mühitə uyğun məkanın yaradılması üçün görülmüş işləri təsəvvür edərsiniz. Çox çirklənmiş Qara şəhər əvəzinə bu gün şəhərsalmanın nümunəsi olan Ağ şəhəri görə bilərsiniz. Yeri gəlmişkən, o, çirkləndiyinə görə Qara şəhər adlanırdı. Bu, şəhər daxilində bir şəhər idi. Şəhərsalmanın digər təzahürü “Sea Breeze” istirahət məkanıdır və mən müsafirlərimizə, xüsusən də soyuq suda üzməyi sevənlərə oraya getməyi çox tövsiyə edirəm”.***



Dövlətimizin başçısı Şamaxı, Gəncə, Naxçıvan, Şəki və Qəbələ kimi şəhərlərin ölkəmizin urban inkişafında mühüm rol oynadığını vurğuladı. Bu yanaşma şəhərsalmanın təkcə paytaxt mərkəzli deyil, həm də çoxmərkəzli və balanslı regional inkişaf modeli üzərində qurulduğunu göstərir. Belə model regionlararası tarazlığın gücləndirilməsinə, əhali və iqtisadi fəaliyyətin daha səmərəli paylanmasına şərait yaradır. Eyni zamanda bu şəhərlərin tarixi irsə əsaslanan özünəməxsus şəhər kimliyi onların turizm və mədəni iqtisadiyyat potensialını daha da artırır. Bu baxımdan, şəhərsalma həm fiziki infrastrukturun inkişafı, həm də iqtisadi və mədəni dəyərin gücləndirilməsi baxımından mühüm əhəmiyyət daşıyır.

### Regional balansdan postmünaqişə şəhərsalmasına

Azərbaycanın WUF13-də təqdim etdiyi ən müasir və innovativ şəhərsalma modeli məhz Qarabağ və Şərqi Zəngəzurun timsalında özünü aydın şəkildə göstərir. Bu nümunə urbanizasiya prosesinin postmünaqişə kontekstində necə fərqli məzmun və xarakter qazandığını nümayiş etdirir. Həmin ərazilərdə həyata keçirilən bərpa və yenidənqurma işləri klassik şəhər yenilənməsi modelindən fərqli olaraq daha çox “sıfırdan şəhər quruculuğu” konsepsiyası kimi dəyərləndirilə bilər. Burada eyni vaxtda bir neçə paralel və qarşılıqlı əlaqəli proses həyata keçirilir: müasir infrastrukturun yaradılması, təhlükəsizlik risklərinin aradan qaldırılması (xüsusilə mina təmizlənməsi), sosial reinteqrasiya və iqtisadi fəallığın bərpası.

Bu baxımdan, “Böyük Qayıdış” proqramı yalnız məcburi köçkünlərin öz doğma yurdlarına dönüşünü təmin edən demoqrafik layihə deyil, eyni zamanda institusional dövlət quruculuğunun mühüm mexanizmi kimi çıxış edir. Proqramın miqyası urban idarəetmənin çoxsaxəli koordinasiya, çevik planlaşdırma və yüksək icra intizamı tələb etdiyini göstərir. Qısa müddət ərzində yolların, körpülərin, tunellərin, hava limanlarının, enerji və su təchizatı infrastrukturlarının yaradılması Azərbaycanın yüksək səviyyəli idarəetmə və mobilizasiya imkanlarını ortaya qoyur. Prezident İlham Əliyev forumun sessiyasında çıxışı zamanı Qarabağın və Şərqi Zəngəzurun yenidən qurulmasının prioritetlərdən olduğunu vurğuladı, ötən 5 ildə bu sahədə böyük işlərin həyata keçirildiyini diqqətə çatdırdı: ***“Beləliklə, hazırda “Böyük Qayıdış” proqramı həyata keçirilir, şəhər və kəndlərin Baş planları hazırlanır. Mən əlbəttə ki, çox rəqəm gətirə bilərəm, lakin yalnız ikisini qeyd edim. Artıq 5 il ərzində çəkdiyimiz tunellərin uzunluğu 70 kilometrdir. Digər beşi də tikiləcək. 500 körpüdən 435-i inşa olunub. Bununla yanaşı, elektrik stansiyaları, su təchizatı kəmərləri, su anbarları, evlər, məktəblər, xəstəxanalar, üç beynəlxalq hava limanı tikilib, dəmir yolları çəkilib. Bütün bunlar cəmi beş il ərzində inşa olunub”.***

Bütün bunlar bir daha göstərir ki, Qarabağ və Şərqi Zəngəzurda formalaşdırılan yeni urban inkişaf modeli yalnız Azərbaycanın postmünaqişə dövründə həyata keçirdiyi bərpa siyasətinin göstəricisi deyil, həm də dayanıqlı, ağıllı və insan mərkəzli şəhərsalma prinsiplərinin praktik tətbiqinin uğurlu nümunəsidir. Bu model beynəlxalq urbanistika müzakirələrində postkonflikt məkanların yenidən qurulması üzrə innovativ yanaşma kimi xüsusi maraq doğurur.

Ümumilikdə, WUF13 çərçivəsində təqdim olunan yanaşma şəhərsalmanı təkcə memarlıq və infrastruktur məsələsi kimi deyil, daha geniş və çoxsahəli idarəetmə sistemi kimi təqdim edir. Bu sistemdə iqtisadi inkişaf, sosial rifah, mədəni irs və ekoloji davamlılıq bir-biri ilə əlaqəli şəkildə nəzərdən keçirilir. Azərbaycanın təqdim etdiyi model isə bu sahələri paralel şəkildə inkişaf etdirməyə çalışır və xüsusilə postmünaqişə bərpa təcrübəsi ilə beynəlxalq şəhərsalma müzakirələrində fərqli bir nümunə kimi çıxış edir. WUF13 göstərir ki, müasir şəhər yalnız yaşayış məkanı deyil, həm də inkişaf, milli kimlik və beynəlxalq inteqrasiyanın vacib platformalarından biridir. Şəhərlərin gələcəyi isə onların sürətlə böyüməsindən çox, bu böyümənin nə qədər balanslı və dayanıqlı şəkildə idarə olunmasından asılıdır.

**Nail ƏSGƏROV**

# Türküstan Zirvəsi:

## Türk Dövlətləri Təşkilatı strateji əməkdaşlıqdan qlobal güc mərkəzinə doğru




***Azərbaycanla türkdilli dövlətlər arasında hərtərəfli əməkdaşlıq Vətən müharibəsində qazanılan tarixi zəfərdən sonra keyfiyyətcə yeni mərhələyə yüksəlib. Bu prosesdə Türk Dövlətləri Təşkilatı (TDT) ortaq maraqların reallaşdırılması, eləcə də siyasi və iqtisadi əlaqələrin dərinləşdirilməsi baxımından əsas platforma kimi çıxış edir. Azərbaycan təşkilatın institusional möhkəmlənməsi, fəaliyyət istiqamətlərinin genişlənməsi və beynəlxalq nüfuzunun artırılması istiqamətində mühüm təşəbbüslərlə çıxış edib, bir sıra konkret layihələrin reallaşdırılmasına töhfə verib. Prezident İlham Əliyevin "Bizim üçün TDT əsas beynəlxalq təşkilatdır, çünki bu bizim ailəmizdir. Bizim başqa ailəmiz yoxdur. Bizim ailəmiz Türk dünyasıdır" fikirləri Azərbaycanın bu birliyə verdiyi həm mənəvi, həm də strateji əhəmiyyətin aydın ifadəsidir. Bu sözlər təkcə siyasi bəyanat deyil, eyni zamanda konkret addımlar və təşəbbüslərlə müşayiət olunan praktiki fəaliyyət xəttini əks etdirir.***

2024-cü ildə Şuşada təşkil olunmuş ilk qeyri-rəsmi Zirvə görüşü isə yeni siyasi ənənənin əsasını qoymaqla ölkəmizin təşkilat daxilində təşəbbüskar rolunun növbəti bariz göstəricisinə çevrilib. Mayın 15-də Qazaxıstanın Türküstan şəhərində keçirilən Türk Dövlətləri Təşkilatının (TDT) Dövlət başçılarının növbəti qeyri-rəsmi Zirvə görüşü isə əməkdaşlığın ardıcıl şəkildə inkişaf etdiyini və təşkilat daxilində siyasi dialoqun daha da dərinləşdiyini göstərir.

### *İqtisadi yüksəliş və nəqliyyat-logistika inteqrasiyası*

Bu gün siyasi dialoqun gücləndirilməsi, iqtisadi əlaqələrin genişləndirilməsi, nəqliyyat-tranzit imkanlarının artırılması, enerji təhlükəsizliyinin təmin olunması, rəqəmsal transformasiya və humanitar sahələrdə inteqrasiyanın dərinləşdirilməsi TDT-nin prioritet istiqamətləri sırasındadır. Türk Dövlətləri Təşkilatının (TDT) 180 milyona yaxınlaşan ümumi əhalisi və illik orta hesabla 5 faizlik artım tempi ilə 2,1 trilyon dollara doğru irəliləyən ümumi daxili məhsulu ticarət əlaqələrini daha da gücləndirmək üçün potensialın böyüklüyünü göstərir. Həmçinin 2024-cü ildə TDT-yə üzv və müşahidəçi ölkələrin öz aralarındakı ixracının ümumi həcmi 35,3 milyard dollara çatıb. Bu rəqəm TDT ölkələrinin dünya üzrə ümumi ixracının 6,1 faizinə bərabərdir. Ölkələr bütün dünya ilə ticarətdə, təxminən, 1,2 trilyon dollarlıq dövriyyəyə nail olaraq qlobal miqyasda çəkilərini bir daha sübut ediblər. Qarşılıqlı ixracın ümumi ixracdakı payının yaxın dövrdə ən azı 10 faizə çatdırılacağı hədəflənir. Bu baxımdan, Azərbaycan beynəlxalq nəqliyyat dəhlizlərinin inkişafında fəal iştirak edir. Xüsusilə Orta Dəhliz kimi tanınan Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutu türk dövlətləri arasında ticarət dövriyyəsinin artmasına və regionun logistika imkanlarının genişlənməsinə mühüm töhfə verir.

Orta Dəhlizin aparıcı seqmentlərindən sayılan Zəngəzur dəhlizi isə yaxın gələcəkdə yalnız regionun nəqliyyat xəritəsini dəyişdirməyəcək, eyni zamanda Türk dünyasının iqtisadi inteqrasiyasını daha da sürətləndirəcək. Bununla yanaşı, Azərbaycan ilə Qazaxıstan arasında Trans-Xəzər Fiber-Optik Kabel xəttinin istifadəyə verilməsi də nəzərdə tutulur ki, bu da rəqəmsal bağlantının möhkəmləndirilməsi baxımından mühüm addım olacaq. Prezident İlham Əliyev Qazaxıstanın Türküstan şəhərində keçirilən Türk Dövlətləri Təşkilatının Dövlət başçılarının qeyri-rəsmi Zirvə görüşündə ölkəmizin nəqliyyat-logistika imkanlarını yüksək qiymətləndirərək gələcək perspektivləri diqqətə çatdırdı: ***"Rəqəmsal inkişaf sahəsində türk dövlətləri ilə əməkdaşlıq uğurla davam edir. Avropa ilə Asiya arasında "Rəqəmsal İpək Yolu" layihəsi icra olunur. Bu layihənin tərkib hissəsi olan, Azərbaycan ilə Qazaxıstan arasında Trans-Xəzər Fiber-Optik Kabel xəttinin yaxın aylarda istifadəyə verilməsi planlaşdırılır. Türk dövlətləri ilə nəqliyyat sahəsində əməkdaşlığımız genişlənir. Cari qlobal geosiyasi şəraitdə Orta Dəhlizin əhəmiyyəti daha da artır. Reallaşmaqda olan Zəngəzur dəhlizi Orta Dəhlizin əsas seqmentlərindən birinə çevriləcək. Orta Dəhliz boyunca gömrük prosedurları sadələşdirilir. Türk Dövlətləri Təşkilatı çərçivəsində hazırlanmış "e-Permit" sistemi elektron icazələrin operativ şəkildə verilməsini təmin edir".***

### *Siyasi dialoq və mədəni əlaqələrdən rəqəmsal transformasiyaya*

Prezident İlham Əliyevin Qazaxıstan səfəri və Türk Dövlətləri Təşkilatının (TDT) Dövlət başçılarının qeyri-rəsmi Zirvə görüşündə səsləndirdiyi fikirlər Azərbaycanın Türk dünyası ilə münasibətlərə verdiyi strateji əhəmiyyətin, eləcə də bu istiqamətdə həyata keçirdiyi ardıcıl siyasətin növbəti təsdiqi kimi dəyərləndirilə bilər. Son illərdə türk dövlətləri arasında əməkdaşlığın dərinləşməsi fonunda Azərbaycanın təşəbbüskar mövqeyi təşkilat daxilində ölkəmizin rolunu daha da gücləndirir. Bu baxımdan, Türküstan Zirvəsi yalnız siyasi dialoq platforması kimi deyil, həm də ortaq tarixi, mədəni və strateji bağların möhkəmləndirilməsi, rəqəmsal transformasiyaya doğru yeni perspektivlərin müəyyənləşdirilməsi nöqteyi-nəzərindən mühüm əhəmiyyət daşıyır.

2025-ci ilin oktyabr ayında Qəbələdə keçirilən Zirvə görüşündə təşkilata sədrliyi qəbul edən Azərbaycan bu məsuliyyətli missiyanı uğurla davam etdirərək TDT çərçivəsində əməkdaşlığın daha da dərinləşdirilməsi istiqamətində ardıcıl fəaliyyət göstərir. Prezident İlham Əliyevin müəyyən etdiyi xarici siyasət kursuna uyğun olaraq Azərbaycan türk dövlətləri arasında həmrəyliyin möhkəmləndirilməsi, ortaq təşəbbüslərin genişləndirilməsi və qarşılıqlı əlaqələrin gücləndirilməsi üçün mühüm addımlar atır. Bu çərçivədə Bakıda keçirilən BMT-nin Ümumdünya Şəhərsalma Forumunun (WUF13) 13-cü sessiyası xüsusi əhəmiyyət daşıyır. Forum çərçivəsində Türk Dövlətləri Təşkilatının şəhərsalma məsələlərinə həsr olunmuş yüksəksəviyyəli dialoqunun təşkili türk dövlətləri arasında dayanıqlı şəhərsalma, urbanizasiya və müasir infrastruktur sahələrində təcrübə mübadiləsinin genişlənməsinə mühüm töhfə verəcək. Eyni zamanda iyun ayında Bakıda keçiriləcək və türk xalqlarının elmi-mədəni birliyinə böyük töhfə vermiş Birinci Türkoloji Qurultayın 100 illiyinə həsr olunan Türk dünyası həftəsi də diqqətçəkən hadisələrdən biridir. Bu əlamətdar tədbir türk xalqları arasında ortaq tarixi yaddaşın, mədəni bağların və elmi əməkdaşlığın daha da möhkəmlənməsinə xidmət edəcək.

Prezident İlham Əliyevin Türküstan Zirvə görüşündəki çıxışında diqqətçəkən əsas istiqamətlərdən biri də rəqəmsal inkişaf və süni intellekt sahəsində əməkdaşlıq məsələləri oldu. Bu xüsusda onu qeyd etmək olar ki, müasir dövrdə texnoloji transformasiyanın qlobal inkişafın əsas hərəkətverici qüvvəsinə çevrildiyini nəzərə alan Azərbaycan bu sahədə ardıcıl strateji addımlar atır. Ölkədə Rəqəmsal İnkişaf Şurasının, Milli Süni İntellekt Mərkəzinin və Süni İntellekt Akademiyasının yaradılması, eləcə də Prezident İlham Əliyevin 2025-ci il 19 mart tarixli Sərəncamı ilə "Azərbaycan Respublikasının 2025-2028-ci illər üçün süni intellekt Strategiyası"nın qəbul olunması Azərbaycanın innovasiya əsaslı inkişaf modelinə keçidinin aydın göstəriciləridir. Bu istiqamətdə türk dövlətləri arasında əməkdaşlığın daha da gücləndirilməsi gələcəkdə regionun texnoloji potensialının artırılmasına, rəqəmsal inteqrasiyanın dərinləşməsinə və ortaq inkişaf imkanlarının genişlənməsinə xidmət edəcək. Eyni zamanda TDT-nin Zirvə görüşü çərçivəsində Türk Sivilizasiyası Mərkəzinin onlayn təməlqoyma mərasimi də keçirildi. Yaxın gələcəkdə reallaşdırılması nəzərdə tutulan bu layihə türk xalqlarının zəngin tarixi, mədəni və mənəvi irsinin qorunub saxlanmasına, öyrənilməsinə və təbliğinə yönəlib. Ən qabaqcıl standartlara uyğun inşa ediləcək mərkəzin əsas ideyası türk sivilizasiyasının dünya tarixində özünəməxsus yeri, dərin fəlsəfəsi və dövlətçilik ənənələri olan böyük sivilizasiya olduğunu nümayiş etməkdir.

Türk Dövlətləri Təşkilatının Türküstan Zirvə görüşü bir daha göstərdi ki, təşkilat artıq yalnız ortaq tarixi və mədəni bağlara söykənən platforma deyil, eyni zamanda siyasi, iqtisadi, texnoloji və strateji əməkdaşlığın dərinləşdiyi mühüm beynəlxalq güc mərkəzinə çevrilir. Prezident İlham Əliyevin uzaqgörən siyasəti ilə Azərbaycanın bu prosesdə nümayiş etdirdiyi fəal və təşəbbüskar mövqe Türk dünyasında ölkəmizin rolunu daha da möhkəmləndirir. Bu gün Azərbaycan yalnız təşkilat daxilində əməkdaşlığın təşviqçisi deyil, həm də ortaq layihələrin reallaşdırılmasına mühüm töhfə verən aparıcı dövlətlərdən birinə çevrilib. Türk dünyasının birliyi və həmrəyliyinin gücləndirilməsi istiqamətində atılan hər bir addım gələcəkdə regionun siyasi sabitliyinə, iqtisadi rifahına və beynəlxalq nüfuzunun artmasına xidmət edəcək. Prezident İlham Əliyevin dediyi kimi: ***"Əziz dostlar, ailəmiz olan Türk dünyası XXI əsrin nüfuzlu geosiyasi güc mərkəzlərindən birinə çevrilməlidir. Azərbaycan bundan sonra da Türk Dövlətləri Təşkilatının möhkəmləndirilməsi naminə səylərini əsirgəməyəcək".***

**Nail ƏSGƏROV**



# Qarabağın bərpa edilməsi, dirçəldilməsi həm böyük rəmzi məna daşıyır, həm də tarixi ədalətin bərpasıdır



### Biz qurub-yaradanıq

Ölkə başçısının 2026-cı ilin "Şəhərsalma və Memarlıq İli" elan edilməsi ilə bağlı imzaladığı Sərəncamda deyilir: *"Böyük Qayıdışa dair I Dövlət Proqramına müvafiq qaydada "yaşıl enerji" zonası elan edilmiş bu ərazilərdə 2020-2025-ci illərdə – dünya memarlıq-inşaat təcrübəsində az rast gəlinən qısa bir müddətdə 100-dən artıq yaşayış məntəqəsi, o cümlədən 12 şəhər üzrə planlaşdırma sənədləri hazırlanmış və quruculuq işlərinə başlanılmışdır".*

Xalq-ordu birliyinin "dəmir yumruğ"unun düşmənin başında şimşək kimi çaxıb onu darmadağın etməsi ilə qazandığımız qələbədən sonra dövlətimizin qarşısında dayanan əsas vəzifələrdən biri də illərdir, düşmən tapdağında xarabaya çevrilən yurd-yuvamızın bərpa edilməsi oldu. El-obamızın hər qarışını gülüstana çevirib yenidən öz sakinlərinə qucaq açması həm hər birimizi sevindirdi, həm də dövlətimizin gücünün yenidən nümayişi oldu. Artıq beş ildir ki, davam edən quruculuq işlərini, öz yurduna qayıdan insanlar üçün yaradılan şəraiti bütün Azərbaycan xalqı görür və öz dövləti ilə qürur duyur. Biz hər kəsə sübut edirik ki, torpaqlarımızı işğaldan azad etdiyimiz kimi onu qurub yenidən gülüstana çevirməyi də bacarırıq.

Tarix bir çox xalqlar arasında müharibələrə şahid olub. Ölkələrin döyüşlərdən sonra hələ uzun müddət problemlər yaşadığı tarixdən bir çoxumuza məlumdur. Tarixi faktlar sübut edir ki, SSRİ kimi nəhəng bir dövlət İkinci Dünya müharibəsindən sonrakı çətinliklərin öhdəsindən qısa zamanda gələ bilməyib. 44 günlük Vətən müharibəsində tarix yazan Azərbaycan dövləti sonrakı dövrdə də bu sahədə dünyaya nümunə göstərdi. Ordumuzun şanlı qələbəsinin davamı olaraq Qarabağ hərb meydanından quruculuq meydanına döndü. Dövlət başçısı, Ali Baş Komandan İlham Əliyevin müdrik rəhbərliyi ilə doğma torpaqlarını 30 illik işğaldan azad edən Azərbaycanın müharibədən sonra cəmi bir il ərzində misilsiz bərpa-quruculuq işlərinə başlaması dünyanı heyrətə gətirdi. Bu işləri dövlətimiz heç kimdən kömək istəmədən, kimsədən yardım almadan həyata keçirir. Həm də çox qısa bir müddət ərzində. Bu real bir faktdır ki, müharibədən yeni çıxmış bir dövlətin ayağa qalxmağı zaman tələb edir. Amma buna baxmayaraq, beş illik qısa zaman kəsiyində azərbaycanlılar sübut etdi ki, bir ölkənin Vətənini ürəkdən sevən lideri və ona dayaq olan xalqı varsa, o hər sahədə qalibdir. Bəli, biz bunu hər sahədə sübut etdik, Böyük Qayıdışa da nail olduq. Altı ildir ki, hər gün yurduna qayıdan Ağdam, Xocalı, Zəngilan, Şuşa sakinlərinin sevincinə şərik olur, ölkə başçısının işğaldan azad edilən ərazilərə etdiyi səfərləri qürurla izləyirik. Onun bölgəyə etdiyi hər səfər yeni təməlqoyma və açılış mərasimləri ilə yadda qalır.

### Biz bu şəhərləri, bu rayonları yenidən dirçəldirik

Dövlət başçısının Bakıda keçirilən Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyasının açılış mərasimində dediyi kimi: ***"İndi hökumətimizin qarşısında duran əsas vəzifələrdən biri Qarabağın və Şərqi Zəngəzurun yenidən qurulmasıdır. Bu ərazi 30 il müddətində erməni işğalı altında idi və tamamilə dağıdılaraq məhv edilmişdir. Beynəlxalq müşahidəçilər və ziyarətçilər Ağdamı Xirosima ilə müqayisə edirdilər, onlar Ağdamı "Qafqazın Xirosiması" adlandırırdılar. Çünki şəhər, sadəcə, mövcud deyildi. Şəhər tamamilə yerlə-yeksan edilmişdir və o, Xirosimadan fərqli olaraq, atom bombasının atılması nəticəsində bir günə bu vəziyyətə düşməmişdir. Bu, 30 illik işğal ərzində edilmişdir və bu zaman binalar, tarixi binalar və ictimai binalar, evlər tamamilə sökülərək dağıdılmışdır".***

Ölkə başçısı işğaldan azad edilən ərazilərdə olarkən hər zaman diqqətə çatdırır ki, biz Qarabağı cənnətə çevirəcəyik. Baxmayaraq ki, düşmən buraları xarabaya çevirib. Son beş ildə Qarabağda böyükhəcmli infrastruktur layihələri həyata keçirilir. Yollar, hava limanları, məktəblər, elektrik stansiyaları, xəstəxanalar, yaşayış binaları, mədəniyyət və təhsil obyektləri, turizm məkanları tikilir, saymaqla bitməyən işlər görülür. Bərpa olunan məscidlərdən azan səsi yüksəlir. Öz çıxışlarında bütün bunların sadalamaqla bitməyəcəyini deyən dövlət başçısı bildirdi ki, Qarabağın dirçəldilməsi ən mühüm vəzifələrdən biridir ki, bu sahədə mühüm işlər görülür.

Azərbaycanın xarabaya çevrilmiş onlarla kəndi və şəhəri belə qısa bir müddət ərzində dirçəltməsi dünya tarixində, bəlkə də, görülməmiş bir memarlıq hadisəsi idi. Qarabağda və Şərqi Zəngəzurda aparılan bərpa və yenidənqurma işləri bütün məziyyətləri ilə yanaşı, dövlətimizin gücünün də təsdiqidir. Nəhəng infrastruktur layihələrinin icrasının başa çatdırılması həm torpaqlarımızın xilaskarı Prezident İlham Əliyevin böyük siyasi iradəsinin təcəssümü, həm də dövlət-xalq birliyinin ən gözəl nümunəsidir. Onu da qeyd etmək yerinə düşər ki, işğaldan azad olunmuş ərazilərimizdə bərpa işləri hələ Vətən müharibəsinin davam etdiyi günlərdən başlanmışdı. Belə ki, ilk qələbə müjdəmiz olan Suqovuşana və Talışa gedən yolun çəkilişinə start verilində hələ hərbi əməliyyatlar davam edirdi.

Müzəffər Ali Baş Komandan İlham Əliyevin azad edilmiş ərazilərə ilk səfəri "Zəfər yolu"nun təməlinin qoyulması ilə yadda qaldı. Bu gün o yollar bizim üçün uzaq olan yerləri yaxın edib. Yollar bizi evimizə, doğma Şuşamıza, Laçınımıza aparır.

### Tarixi irsimizə, mirasımıza münasibətimizin ən yaxşı göstəricisi

Bəşər sivilizasiyasının ilk yaşayış məskənlərindən olan Qarabağ ərazisində, deməк olar ki, bütün dövrlərə aid abidələr mövcuddur. Qarabağda Azıx, Tağlar mağaraları, Xocalı kurqanları, Babadərviş, Qaraköpəktəpə yaşayış yerləri və sair abidələr Azərbaycan arxeoloqları tərəfindən tədqiq edilmişdir. Azad olunan ərazilərimizdə 706-sı dövlət qeydiyyatında olmaqla, 2600-dən çox tarix-mədəniyyət abidəsi var. Şuşa qalası, Xudafərin körpüləri, Gəncəsər, Xudavəng monastırları, Qutlu Musa türbəsi Qarabağ və Şərqi Zəngəzurda dünya əhəmiyyətli tarix-mədəniyyət abidələridir. Onlardan bəziləri artıq bərpa edilib. Bununla yanaşı, Üzərliktəpədə də arxeoloji işlər həyata keçirilir. Həmçinin Üzeyir bəy Hacıbəylinin heykəli, Molla Pənah Vaqifin büstü və məqbərəsi, Bülbülün ev-muzeyi, Aşağı və Yuxarı Gövhər ağa, Saatlı, Ağdam Cümə məscidləri öz doğmalarını gözəl siması ilə qarşılayır.

***"Biz tarixi keçmişimizə nəzər salarkən, ulu babalarımızın yaratdığı və indiyə qədər yaşayan abidələrlə, qalalarla, şəhərlərlə, heykəllərlə, yollarla – yaradılan hər bir şeylə fəxr edir və bunları yaradanları daim xatırlayır, onlara öz minnətdarlığımızı bildiririk"***, – deyən xalqımızın Ümummilli Lideri Heydər Əliyev hakimiyyətdə olduğu bütün dövrlərdə bu abidələrin mühafizə, bərpa, konservasiya, tədqiqat və təbliğat işlərinin təkmilləşdirilməsini bir vəzifə olaraq qarşıya qoymuşdur. Ulu Öndərin adını daşıyan fondun işğaldan azad olunan ərazilərdəki fəaliyyəti nəticəsində işğal dövründə dağıdılmış tarixi abidələrimizin milli kimliyi özünə qaytarılır. Vaxtilə düşmən vandallığı ilə xarabaya dönən məscidlərimizdən yüksələn azan səsi düşmənin qulağını kar edir. Yenidən həyata dönən Qarabağda ucalan tarixi abidələr isə bu yerlərin əbədi sahibi olduğumuzu bir daha sübut edir.

### Bütün bunları cəmi beş il ərzində bacarmışıq

İşğaldan azad olunmuş ərazilərdə geniş minatəmizləmə işləri davam etdirilir. 2025-ci ildə 69,2 min hektar, ümumilikdə isə 2020-ci ildən azad edilmiş ərazilərdə 249 min hektara yaxın ərazi minalardan və partlamamış hərbi sursatlardan təmizlənib. 2026-cı ildə 65 min hektardan artıq ərazinin minalardan təmizlənməsi planlaşdırılır. Bütün bunlar quruculuq işlərinin daha da sürətlənməsinə şərait yaratmaqla yanaşı, əkin sahələrinin də əhatə dairəsini genişləndirir. Tikinti-quruculuq işlərinə rəqəmlərin gözü ilə baxanda nə qədər böyük işlər gördüyümüzə şahid oluruq. Belə ki 5 il ərzində çəkilən tunellərin uzunluğu 70 kilometrdir. 500 körpüdən 435-i inşa olunub. Bununla yanaşı, elektrik stansiyaları, su təchizatı kəmərləri, su anbarları, evlər, məktəblər, xəstəxanalar, üç beynəlxalq hava limanı tikilib, dəmir yolları çəkilib.

Prezident İlham Əliyevin Qarabağ və Şərqi Zəngəzura səfərləri zamanı açılışlar və təməlqoyma mərasimləri, insanların öz doğma yurduna qayıdışı işğaldan azad olunmuş ərazilərimizin sürətlə bərpa olunduğunu bütün dünyaya nümayiş etdirdi. İlk köç qədim Zəngilanın Ağalı kəndindən başlayanda vaxtilə torpağımızı əsarətdə saxlayan düşmənin ağlına gəlməzdi ki, onların xarabaya çevirdiyi, viran qoyduğu yerlərdə ağıllı kəndlər qurulacaq. İllərlə zirvəsində özlərinə çaqqal yuvası qurub yaşadıqları Murovun buz kəsmiş aşırımları zəhmətkeş azərbaycanlıların nəfəsinin hənirtisi ilə əriyəcək. Başı göylərə ucalan dağların bağrı açılaraq salınan dərin tunellər bizi torpağımıza daha da yaxınlaşdıracaq. Biz bunu bacardıq. Artıq 85 mindən çox insan öz isti ocağında çırağını yandırır, yaşayır, çalışır, təhsil alır. Onlarla kənd, qəsəbə və şəhərdə yaşayan keçmiş məcburi köçkünlər üçün bu gün ən gözəl şərait yaradılıb. İnsanların məşğulluğunun təmin edilməsi üçün sənaye zonaları salınıb. İllər sonra öz doğma evinə qayıdan hər kəs Müzəffər Sərkərdəsinə və məğrur oğullarına minnətdarlıq hissi ilə ömür sürür.

Bu gün Şuşada Aşağı və Yuxarı Gövhər ağa, Saatlı məscidlərindən ucalan azan səsini, Xocalının qarlı küçələrində qartopu oynayan uşaqların gülüşünü, Zəngilandan ucalan toy sədasını eşidən, Laçında ayaq tutub yeriyən körpənin addımlarını görən hər bir azərbaycanlı bütöv Azərbaycanı və Vətən üçün can verən oğulları ilə qürur duyur.



✍ Ramiyə ƏKBƏROVA



## Prezident İlham Əliyev Esvatini Kralının başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 17-də Esvatini Kralı Əlahəzrət III Msvatinin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.

Esvatini Kralı BMT-nin Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyasında iştiraka dəvətə görə dövlətimizin başçısına minnətdarlığını bildirdi.

Prezident İlham Əliyev 180-dən çox ölkənin nümayəndəsinin iştirak etdiyi bu tədbirin dünyada şəhərsalma sahəsində aktual olan müxtəlif mövzuları müzakirə etmək, həmçinin təcrübə mübadiləsi aparmaq üçün çox yaxşı fürsət olduğunu dedi.

Görüşdə Azərbaycan ilə Esvatini arasında ikitərəfli əlaqələrin inkişafı, o cümlədən enerji, mədən sənayesi və digər sahələrdə əməkdaşlığın perspektivlərinə dair fikir mübadiləsi aparıldı.

## Prezident İlham Əliyev Keniya Prezidentinin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 17-də Keniya Respublikasının Prezidenti Uillyam Samoei Rutonun başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.

Azərbaycana ilk dəfə səfər etdiyini deyən Keniya Prezidenti WUF13-ə dəvətə görə dövlətimizin başçısına minnətdarlığını bildirdi.

Uillyam Samoei Ruto WUF-un ilk dəfə Keniyada keçirildiyini deyərək ölkəsinin BMT-nin Məskunlaşma Proqramına (UN-Habitat) da ev sahibliyi etdiyini vurğuladı. Qonaq Keniyada yaşayış məskənlərinin yaradılması üzrə böyük miqyasda layihələrin həyata keçirildiyini qeyd etdi.

Əlaqələrimizin dinamik surətdə inkişafından məmnunluğunu bildirən Uillyam Samoei Ruto Azərbaycan Prezidentini Keniyaya rəsmi səfərə dəvət etdi.

Dəvəti məmnunluqla qəbul edən dövlətimizin başçısı, öz növbəsində, Keniya Prezidentini ölkəmizə rəsmi səfərə dəvət etdi.

Keniya Prezidenti Azərbaycanla Ermənistan arasında sülh gündəliyinin irəli aparılmasında dövlətimizin başçısının nümayiş etdirdiyi liderliyə görə təbriklərini çatdırdı.

Təbriklərə görə təşəkkürünü bildirən Prezident İlham Əliyev sülh gündəliyinin daha da gücləndirilməsi və regionda davamlı sülhün yaradılması istiqamətində Azərbaycanın səyləri davam etdirdiyini vurğuladı.

Görüşdə Azərbaycan ilə Keniya arasında enerji, müdafiə sənayesi, kənd təsərrüfatı və digər sahələrdə əməkdaşlığın inkişaf etdirilməsi üçün böyük perspektivlərin olduğu bildirildi, son dövrlərdə müxtəlif səviyyələrdə qarşılıqlı səfərlərin həyata keçirilməsinin əlaqələrimizin inkişafında müsbət rolu qeyd edildi.

## Prezident İlham Əliyev Serbiya Prezidenti ilə görüşüb



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 17-də Serbiya Respublikasının Prezidenti Aleksandar Vuçiçlə görüşüb.

Aleksandar Vuçiç BMT-nin Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyasının əhəmiyyətini vurğulayaraq bu tədbirin Bakıda keçirilməsi münasibətilə dövlətimizin başçısına təbriklərini çatdırdı.

Prezident İlham Əliyev təbriklərə görə təşəkkürünü bildirdi.

Söhbət zamanı Azərbaycan Prezidentinin bu ilin fevralında Serbiyaya rəsmi səfəri məmnunluqla xatırlandı, bu səfər zamanı müzakirə olunmuş məsələlərin həyata keçirilməsi istiqamətində addımların atıldığı vurğulandı.

Dövlət başçılarının səfərlərinin, həmçinin müxtəlif səviyyələrdə qarşılıqlı səfərlərin əməkdaşlığımızın genişləndirilməsi işində önəminə toxunuldu.

Siyasi əlaqələrimizin yüksək səviyyədə olduğu bildirilərək iqtisadi, enerji, investisiyalar, birgə layihələrin icrası və digər sahələrdə əməkdaşlığın dərinləşdirilməsi üçün yaxşı imkanların mövcudluğu qeyd edildi.

Görüşdə xalqlarımızın yaxınlaşdırılması və turizm potensialımızın möhkəmləndirilməsi baxımından Serbiyanın "Airserbia" şirkətinin Belqrad-Bakı marşrutu üzrə birbaşa uçuşlar həyata keçirməsinin əhəmiyyətinə toxunuldu.

Dövlət başçıları qarşılıqlı maraqdoğuran məsələlər ətrafında fikir mübadiləsi apardılar.

## Prezident İlham Əliyev Bolqarıstan Prezidenti ilə görüşüb

Mayın 17-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Bolqarıstan Respublikasının Prezidenti İliyana Yotova ilə görüşüb.

Ali qonaq bu ilin fevralında Münxen Təhlükəsizlik Konfransı çərçivəsində Azərbaycan Prezidenti ilə görüşünü və görüş əsnasında aparılmış müzakirələri məmnunluqla xatırladı.

Bolqarıstan Prezidenti hazırda dünyada müharibələrin və münaqişələrin olduğu bir şəraitdə aktual mövzuya həsr olunmuş Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyasının Azərbaycanda keçirilməsini böyük hadisə kimi qiymətləndirdi. Vurğuladı ki, Bolqarıstan bu tədbirdə dövlət başçısı, eyni zamanda bu ölkənin 10-dan artıq müxtəlif bələdiyyələrinin rəhbərləri, həmçinin Şuşa şəhəri ilə qardaşlaşmış Veliko Tırnovo şəhərinin meri səviyyəsində təmsil olunur.

Qonaq Ümumdünya Şəhərsalma Forumunun sessiyasının dünyada bu sahə ilə bağlı aktual mövzuların müzakirə edildiyi mühüm platforma olduğunu deyərək tədbirin ölkəmizdə təşkil edilməsi münasibətilə təbriklərini çatdırdı.

Dövlətimizin başçısı təbriklərə görə minnətdarlığını bildirdi.

Prezident İliyana Yotova Azərbaycanla Bolqarıstan arasında enerji sahəsində əməkdaşlığın əhəmiyyətini vurğuladı, bu xüsusda "Həmrəylik Halqası" layihəsinin önəmini qeyd etdi. Mədəni və humanitar əlaqələrə toxunan Bolqarıstan Prezidenti Azərbaycanda bolqar dilinin tədrisini yüksək qiymətləndirdi. O həmçinin Heydər Əliyev Fondunun Bolqarıstanda həyata keçirdiyi humanitar layihələri, Veliko Tırnovo ilə Şuşa şəhərinin qardaşlaşmasını və bu xüsusda orada Şuşa parkının salındığını qeyd etdi.



İliyana Yotova Heydər Əliyev Fondunun Bolqarıstanda "Trapezitsa" Memarlıq Muzeyi Qoruğunun bərpasına göstərdiyi dəstəyə görə bir daha minnətdarlığını bildirdi.

Söhbət zaman ölkələrimiz arasında səmərəli əməkdaşlığın qarşılıqlı hörmət və etimad əsasında möhkəmləndiyi vurğulandı, enerji, həmçinin elektrik enerjisinin ixracı, kənd təsərrüfatı, turizm və digər sahələrdə əlaqələrin perspektivləri müzakirə olundu.

Azərbaycanla Bolqarıstanın beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlığına toxunuldu.

Dövlət başçıları ikitərəfli gündəlikdə duran məsələlərə dair fikir mübadiləsi apardılar.

## Prezident İlham Əliyevin Gürcüstanın Baş naziri ilə görüşü olub



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin mayın 18-də Gürcüstanın Baş naziri İrakli Kobaxidze ilə görüşü olub.

Dövlətimizin başçısı bu ilin aprelində Gürcüstana dövlət səfərini məmnunluqla xatırladı, bu səfərin münasibətlərimizin möhkəmlənməsi işinə verdiyi töhfəni qeyd etdi. Prezident İlham Əliyev bu gün imzalanacaq sənədlərin əməkdaşlığın genişləndirilməsi baxımından əhəmiyyətinə toxundu.

Qəbula görə dövlətimizin başçısına minnətdarlığını bildirən qonaq Azərbaycanda olmaqdan xüsusi məmnunluq hissi keçirdiyini dedi.

Prezident İlham Əliyevə Gürcüstana dövlət səfəri etdiyinə görə minnətdarlığını bildirən İrakli Kobaxidze bu səfərin hər kəsdə dərin təəssüratlar oyatdığını vurğuladı.

Qonaq Azərbaycan ilə Gürcüstanın bir çox ölkələr üçün bağlantılar baxımından vacib rol oynadığını qeyd etdi və gələcəkdə bu istiqamətdə əməkdaşlığın daha da dərinləşdirilməsinin önəminə toxundu.

BMT-nin Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyasının Bakıda keçirilməsi ilə əlaqədar Azərbaycan Prezidentini təbrik edən İrakli Kobaxidze tədbirin dünya şəhərsalma gündəliyini müzakirə etmək üçün yaxşı platforma olduğunu dedi.

Prezident İlham Əliyev təbriklərə görə minnətdarlığını bildirdi.

Görüşdə ölkələrimiz arasında mehriban qonşuluq və dostluğa əsaslanan münasibətlərin bir çox istiqamət üzrə dinamik inkişafına toxunuldu, ikitərəfli gündəliyimizin çox geniş olduğu qeyd edildi. Siyasi, iqtisadi-ticari, enerji, nəqliyyat, logistika, sərmayələr və digər sahələrdə əməkdaşlığın genişləndirilməsi üçün böyük potensialın olduğu bildirildi. Müxtəlif səviyyələrdə qarşılıqlı səfərlərin əlaqələrin möhkəmlənməsində rolu vurğulandı.

Sonra Prezident İlham Əliyevin və Baş nazir İrakli Kobaxidzenin iştirakı ilə Azərbaycan Respublikası Hökuməti ilə Gürcüstan Hökuməti arasında təbii qazın Gürcüstana təchizatı barədə Saziş, Azərbaycan Respublikası Hökuməti ilə Gürcüstan Hökuməti arasında Gürcüstana elektrik enerjisinin təchizatı və elektrik enerjisinin Gürcüstan ərazisi vasitəsilə tranziti barədə Saziş və "Bakı-Tbilisi-Qars" yeni dəmir yolu xətti layihəsinin həyata keçirilməsi çərçivəsində Marabda-Türkiyə Respublikası sərhədinə qədər (Kartsaxi) dəmir yolu sahəsinin reabilitasiyası, rekonstruksiyası, inşası üzrə Koordinasiya Şurasının 41-ci iclasının Protokolu imzalandı.

# Prezident İlham Əliyev Özbəkistan Prezidenti Şavkat Mirziyoyevlə görüşüb



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 18-də Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev ilə görüşüb.

Dövlətimizin başçısı Şavkat Mirziyoyevə Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyasında iştirak etdiyinə görə minnətdarlığını bildirib və qeyd etdi ki, Özbəkistan Prezidentinin burada olması dövlətlərimiz və xalqlarımız arasında qardaşlıq və dostluq əlaqələrinin göstəricisidir.

Şavkat Mirziyoyevlə görüşlərini xatırladan Prezident İlham Əliyev bu görüşlər əsnasında müzakirə olunmuş layihələrin həyata keçirildiyini dedi.

Dövlətimizin başçısı Bakıda Özbəkistan parkının inşasını da qeyd etdi.

Dost və qardaş Azərbaycanda olmaqdan məmnunluğunu bildirən Şavkat Mirziyoyev BMT-nin Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyasının Bakıda keçirilməsi münasibətilə dövlətimizin başçısını təbrik etdi, bu tədbirin şəhərsalma mövzusuna həsr olunan mühüm qlobal məsələlərin müzakirəsinə imkan yaratdığını vurğuladı və dəvətə görə təşəkkür etdi.

Dövlətimizin başçısı təbriklərə görə minnətdarlığını bildirdi.

Ölkəmizə hər səfərində inkişafın şahidi olduğu deyən Özbəkistan Prezidenti Azərbaycanın Qarabağda yeni şəhərlər və kəndlər saldığını məmnunluqla vurğuladı və bunu Prezident İlham Əliyevin rəhbərliyi ilə qazanılmış uğurlar kimi qiymətləndirdi.

Şavkat Mirziyoyev dedi ki, dövlətimizin başçısının rəhbərliyi ilə ölkəmizin qazandığı uğurlar, Vətən müharibəsində qazanılan Qələbə Prezident İlham Əliyevin səylərinin və Vətənə, xalqa sevgisinin nəticəsidir.

Xoş sözlərə görə təşəkkür edən dövlətimizin başçısı Qarabağın bərpasında Özbəkistan Prezidentinin göstərdiyi dəstəyi qeyd etdi. Bu xüsusda vurğulandı ki, Füzulidə Özbəkistan tərəfindən inşa olunan Mirzə Uluqbəy adına 1 nömrəli tam orta məktəb Qarabağın bərpası prosesində ilk hədiyyə olub. Prezident İlham Əliyev bunu qardaşlığın, dəstəyin və həmrəyliyin təcəssümü kimi qiymətləndirdi.

Söhbət zamanı Azərbaycan Prezidentinin Özbəkistana, Özbəkistan Prezidentinin isə ölkəmizə səfərləri, həmçinin görüşləri məmnunluqla xatırlandı.

Dövlət başçılarının verdikləri tapşırıqlara uyğun olaraq iki ölkə arasında həyata keçirilən iqtisadi layihələr bir daha nəzərdən keçirildi, onların icrasından məmnunluq ifadə olundu. Bu xüsusda energetika, mədən sənayesi, kənd təsərrüfatı, maşınqayırma sənayesi, əczaçılıq və digər sahələrdə olan layihələrə toxunuldu.

Ölkələrimiz arasında əlaqələrin strateji müttəfiqlik xarakteri daşıdığı vurğulanaraq bütün sahələrdə əməkdaşlığın uğurla inkişaf etdiyi məmnunluqla qeyd olundu.

# Prezident İlham Əliyev Mavriki Prezidenti ilə görüşüb



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 19-da Mavriki Respublikasının Prezidenti Daramber Qoxul ilə görüşüb.

WUF13 tədbirində iştirak etdiyinə görə Mavriki Prezidentinə təşəkkürünü bildirən dövlətimizin başçısı onun səfərinin ikitərəfli əlaqələrin inkişafı ilə bağlı müzakirələr aparmaq baxımından da yaxşı imkan yaratdığını dedi.

Prezident İlham Əliyev siyasi münasibətlərimizin səviyyəsindən məmnunluğunu bildirdi.

Mavriki Prezidenti bu tədbirə dəvətə görə dövlətimizin başçısına təşəkkür etdi. Darambe Qoxul ikitərəfli əlaqələrimizin müxtəlif aspektlərini müzakirə etmək baxımından da səfərinin roluna toxundu.

Bakıya səfəri çərçivəsində "ASAN xidmət" mərkəzini ziyarət etdiyini deyən Mavriki Prezidenti oradakı şəraitin onda zəngin təəssürat hissi yaratdığını bildirdi və ölkəsində də bu cür təcrübənin tətbiqində maraqlı olduğunu vurğuladı.

ASAN modelinin yaradılması ilə əlaqədar Azərbaycanın müxtəlif dövlətlərlə əməkdaşlıq etdiyini deyən Prezident İlham Əliyev bildirdi ki, bu xüsusda ölkəmiz Mavrikiyə də dəstək verməyə və təcrübəsini bölüşməyə hazırdır.

Qonaq WUF13 kimi qlobal səviyyəli tədbirin Azərbaycanda keçirilməsinin önəmini vurğuladı.

Darambe Qoxul Mavrikidən olan tələbələrə verilmiş təhsil təqaüdləri ilə bağlı Azərbaycan Prezidentinə təşəkkürünü bildirdi, gələcəkdə bunun daha da artırılması imkanlarına baxılmasını xahiş etdi.

Görüşdə ölkələrimizin beynəlxalq təşkilatlarda əməkdaşlığına toxunuldu, müxtəlif səviyyələrdə qarşılıqlı səfərlərin və təmasların tərəfdaşlığın genişləndirilməsi baxımından rolu vurğulandı. İqtisadiyyat, sərmayələr, enerji, o cümlədən bərpa olunan enerji, turizm və digər sahələrdə əməkdaşlığa dair fikir mübadiləsi aparıldı.

# Naxçıvanda Ulu Öndər Heydər Əliyevin 103-cü ildönümünə həsr olunmuş konsert keçirilib






Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə Heydər Əliyev Sarayında Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 103-cü ildönümünə həsr olunmuş konsert proqramı keçirilib.

Müslüm Maqomayev adına Azərbaycan Dövlət Akademik Filarmoniyasının, Bakı Dövlət Kamera Orkestrinin təqdim etdiyi gecədə Azərbaycan bəstəkarlarının klassik və unudulmaz əsərləri səsləndirilib.

Tədbir Azərbaycan musiqi mədəniyyətinin zənginliyini, milli-mənəvi dəyərlərə bağlılığı və klassik irsin yaşadılmasının əhəmiyyətini əks etdirib.

Müslüm Maqomayev adına Azərbaycan Dövlət Akademik Filarmoniyasının dirijoru, Azərbaycan Respublikasının Əməkdar artisti Fuad İbrahimov konsertlə bağlı təəssüratlarını "Şərq qapısı" ilə bölüşüb, Naxçıvanda olmaqdan məmnunluğunu ifadə edib.

Dirijor bildirib ki, Naxçıvana ilk səfəri onun üçün yaddaqalan olub: "Uzun müddətdir, bu qədim diyara gəlməyi arzulayırdım. İlk səfərimin məhz Ümummilli Lider Heydər Əliyevin 103-cü ildönümünə həsr olunan tədbirə təsadüf etməsi mənim üçün xüsusi məna daşıdı".

Fuad İbrahimov qeyd edib ki, konsert boyunca Azərbaycan musiqisinin görkəmli bəstəkarlarının əsərləri yüksək səviyyədə ifa olunub.

Əməkdar artist tamaşaçıların musiqiyə göstərdiyi marağı yüksək qiymətləndirərək bildirib ki, Naxçıvan dinləyicisinin sənətə olan sevgisi xüsusi diqqət çəkir. O belə tədbirlərin milli musiqimizin təbliği, klassik irsimizin yaşadılması və gənc ifaçıların inkişafı baxımından mühüm əhəmiyyət daşıdığını vurğulayıb.

Konsert proqramında Azərbaycan Respublikasının Xalq artisti Gülnaz İsmayılova da iştirak edib.

Xalq artisti bildirib ki, Ulu Öndərin əziz xatirəsinə ithaf olunan belə musiqi tədbirləri xüsusi əhəmiyyət daşıyır. Bu cür tədbirlər həm dahi şəxsiyyətin xatirəsinin yad edilməsi, həm də milli musiqimizin yaşadılması baxımından önəmlidir".



Gülnaz İsmayılova qeyd edib ki, proqramda Azərbaycan bəstəkarlarının müxtəlif janrlarda əsərləri səsləndirilib və tamaşaçılar tərəfindən böyük maraqla qarşılanıb.

Xalq artisti Naxçıvan tamaşaçısının musiqiyə olan sevgisini yüksək qiymətləndirərək belə görüşlərin sənət adamları üçün də yaddaqalan olduğunu vurğulayıb.

Ümummilli Lider Heydər Əliyevin mədəniyyətə və incəsənətə göstərdiyi diqqət və qayğının təcəssümü olan bu gecə, eyni zamanda milli musiqimizin gələcək nəsillərə çatdırılması baxımından xüsusi önəm daşıyır.



# Avropa Şurası Yerli və Regional Hakimiyyətlər Konqresi Baş katibinin rəhbərlik etdiyi nümayəndə heyəti ilə Konqresdə Azərbaycanı təmsil edən nümayəndələr arasında görüş keçirilib



Azərbaycan Respublikasında keçirilən Ümumdünya Şəhərsalma Forumunun (WUF) 13-cü Sessiyasında iştirak etmək üçün ölkəmizdə səfərdə olan Avropa Şurası Yerli və Regional Hakimiyyətlər Konqresinin Baş katibi Mathieu Morinin başçılıq etdiyi nümayəndə heyəti Azərbaycan Bələdiyyələrinin Milli Assosiasiyasında rəhbər şəxslərlə görüşüb. Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin birinci müavini Bəxtiyar Məmmədov, sədr müavini Arzu Abdullayev və Ali Məclisin deputatı Xumar Məmmədovanın da iştirak etdiyi görüşdə gələcək əməkdaşlıq imkanları müzakirə edilib.



## Naxçıvan Muxtar Respublikasının mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərləri tərəfindən 2026-cı ilin iyun ayında şəhər və rayonlarda keçiriləcək vətəndaş qəbullarının cədvəli

| S/n | Qəbulu keçirəcək mərkəzi icra hakimiyyəti orqanının rəhbəri | Qəbulun keçiriləcəyi şəhər, rayon | Qəbulun keçiriləcəyi tarix |
|---|---|---|---|
| 1. | **Naxçıvan Muxtar Respublikasının kənd təsərrüfatı naziri** Rafail Quliyev | Ordubad | 03.06.2026 |
| 2. | **Naxçıvan Muxtar Respublikasının təhsil naziri** Elxan Nəcəfov | Şahbuz | 11.06.2026 |
| 3. | **Naxçıvan Muxtar Respublikası Qida Təhlükəsizliyi Agentliyinin sədri** Səfərəli Nəsirov | Sədərək | 12.06.2026 |
| 4. | **Naxçıvan Muxtar Respublikasının iqtisadiyyat naziri** Kazım Hüseynəliyev | Culfa | 18.06.2026 |
| 5. | **Naxçıvan Muxtar Respublikasının ekologiya və təbii sərvətlər naziri** Xanlar Mustafayev | Sədərək | 18.06.2026 |
| 6. | **Naxçıvan Muxtar Respublikası səhiyyə nazirinin müavini, nazir vəzifəsini müvəqqəti icra edən** Rəşadət Nabatov | Babək | 18.06.2026 |
| 7. | **Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri** Ramilə Seyidova | Şahbuz | 18.06.2026 |
| 8. | **Naxçıvan Muxtar Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Agentliyinin direktoru** Vüqar Babayev | Culfa | 18.06.2026 |
| 9. | **Naxçıvan Muxtar Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri** İlqar Sadıqov | Babək | 24.06.2026 |
| 10. | **Naxçıvan Muxtar Respublikası mədəniyyət nazirinin müavini, nazir vəzifəsini müvəqqəti icra edən** Həsən Seyidov | Kəngərli | 25.06.2026 |

**Vətəndaşların qəbulu müəyyən edilmiş günlərdə saat 11[00]-da başlayır.**

## "Naxçıvan Muxtar Respublikasının 2025-ci il büdcəsinin icrası haqqında" Naxçıvan Muxtar Respublikasının qanun layihəsi Ali Məclis komitələrinin birgə iclasında müzakirə edilib



Mayın 18-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Daxili Nizamnaməsinə əsasən aparıcı komitə təyin olunan İqtisadi siyasət komitəsinin sədri Mübariz Bayramovun sədrliyi ilə "Naxçıvan Muxtar Respublikasının 2025-ci il büdcəsinin icrası haqqında" Naxçıvan Muxtar Respublikasının qanun layihəsinin müzakirəsi məqsədilə Ali Məclis komitələrinin birgə iclası keçirilib.

Mübariz Bayramov qeyd edib ki, hər il olduğu kimi bu ildə də Naxçıvan Muxtar Respublikası Maliyyə Nazirliyinin hazırladığı 2025-ci il üçün Naxçıvan Muxtar Respublikası büdcəsinin gəlir və xərc maddələri üzrə 2025-ci il büdcəsinin icrası ilə bağlı illik hesabatı və müvafiq qanun layihəsi Naxçıvan Muxtar Respublikası Nazirlər Kabineti tərəfindən Naxçıvan Muxtar Respublikası Ali Məclisinə təqdim edilib.

Vurğulanıb ki, layihəyə əsasən 2025-ci ildə Naxçıvan Muxtar Respublikası büdcəsinin gəlirləri, ümumilikdə, 493 milyon 143 min manat proqnoza qarşı 450 milyon 644 min 744 manat icra olunaraq göstərici 91,4 faiz səviyyəsində təmin edilib. Büdcə xərcləri isə təsdiq olunmuş 505 milyon 184 min manatın 445 milyon 629 min 730 manatı həcmində və ya 88,2 faiz səviyyəsində icra olunub.

Naxçıvan Muxtar Respublikasının maliyyə naziri Həsən İsmayılov qanun layihəsi barədə məlumat verib.

Qanun layihəsi ilə əlaqədar Ali Məclis Aparatının İqtisadi məsələlər şöbəsinin müdiri Nihad Möhbalıyev, Naxçıvan Muxtar Respublikası Nazirlər Kabineti Aparatının Maliyyə və büdcə məsələləri şöbəsinin müdiri Tural Şirəlizadə, Ali Məclisin komitə sədrləri və İqtisadi siyasət komitəsinin üzvləri çıxış ediblər.

Gündəlikdə duran məsələ ilə bağlı deputatların sualları cavablandırıldıqdan sonra komitənin rəyi oxunub, "Naxçıvan Muxtar Respublikasının 2025-ci il büdcəsinin icrası haqqında" Naxçıvan Muxtar Respublikasının qanun layihəsi Ali Məclisin plenar iclasının müzakirəsinə təqdim olunub.

## Ali Məclisin Hüquq siyasəti komitəsinin iclası keçirilib

Mayın 22-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Hüquq siyasəti komitəsinin növbəti iclası keçirilib.

Komitə sədri Əjdər Əliyev iclasın gündəliyinə daxil edilən üçüncü oxunuşda olan "Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə seçkilər haqqında" Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Naxçıvan Muxtar Respublikasının qanun layihəsi barədə məlumat verib. Bildirilib ki, qanun layihəsi Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 2026-cı il 13 may tarixdə keçirilən plenar iclasında ikinci oxunuşda qəbul edilib.

Sonra qanun layihəsi səsverməyə çıxarılaraq üçüncü oxunuşda baxılmaq məqsədilə Ali Məclisin



plenar iclasının müzakirəsinə təqdim olunub.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin mətbuat xidmətinin məlumatı






















Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin mətbuat xidməti məlumat verir ki, 2026-cı ilin yanvar-aprel ayları ərzində Naxçıvan Muxtar Respublikasında sosial-iqtisadi inkişaf üzrə əsas makroiqtisadi göstəricilərdə müsbət dinamika müşahidə olunmuşdur. Cari ilin 4 ayı ərzində muxtar respublikada ümumi daxili məhsul istehsalı 514,2 milyon manat təşkil etmişdir. Ötən ilin müvafiq dövrü ilə müqayisədə ÜDM real ifadədə 3,7 faiz artmışdır. Bütün maliyyə mənbələri hesabına əsas kapitala yönəldilmiş investisiyaların həcmi 60,9 milyon manat olmuş, əvvəlki ilin eyni dövrü ilə müqayisədə 23,1 faiz artım qeydə alınmışdır. İnvestisiya qoyuluşlarının artması muxtar respublikada infrastrukturun yenilənməsi, istehsal imkanlarının genişləndirilməsi və iqtisadi fəallığın dəstəklənməsi baxımından mühüm əhəmiyyət daşıyır.

Sənaye sahəsində də artım dinamikası davam etmişdir. Cari ilin 4 ayı ərzində sənaye məhsulu istehsalının həcmi 178,3 milyon manat təşkil etmiş, ötən ilin müvafiq dövrü ilə müqayisədə 13,9 faiz artmışdır. Sənaye məhsulu istehsalında malların istehsalının payı 85,4 faiz, xidmətlərin istehsalının payı isə 14,6 faiz olmuşdur. 2026-cı ilin yanvar-aprel aylarında muxtar respublikada 2 milyon 272 min 500 ton yük daşınmış, bu göstərici ötən ilin müvafiq dövrü ilə müqayisədə 1,1 faiz artmışdır. Eyni dövrdə sərnişin daşınması 0,9 faiz artımla 15 milyon 174 min 500 nəfər təşkil etmişdir.

Xarici ticarət dövriyyəsinin həcmi 47,1 milyon ABŞ dolları olmuşdur. Bunun 42,6 milyon ABŞ dolları idxalın, 4,5 milyon ABŞ dolları isə ixracın payına düşmüşdür. Ötən ilin müvafiq dövrü ilə müqayisədə xarici ticarət dövriyyəsi 18,4 faiz artmışdır.

Kənd təsərrüfatı məhsulu istehsalı üzrə də müsbət dinamika müşahidə olunmuşdur. 2026-cı ilin yanvar-aprel aylarında kənd təsərrüfatı məhsulu istehsalının həcmi 63,4 milyon manat təşkil etmişdir ki, bu da ötən ilin eyni dövrü ilə müqayisədə 0,5 faiz artım deməkdir. Bu göstəricinin 4,4 milyon manatı bitkiçilik, 59,0 milyon manatı isə heyvandarlıq sahəsinin payına düşmüşdür.

Sahibkarlığın inkişafının dəstəklənməsi istiqamətində həyata keçirilən tədbirlər çərçivəsində Naxçıvan Muxtar Respublikasında Sahibkarlığın İnkişafı Fondu tərəfindən hesabat dövründə verilmiş kreditlərin həcmi 2,5 milyon manat təşkil etmişdir. Bu göstərici ötən ilin müvafiq dövrü ilə müqayisədə 34,3 faiz artmışdır.

Ümumilikdə, 2026-cı ilin yanvar-aprel ayları üzrə göstəricilər Naxçıvan Muxtar Respublikasında iqtisadi sahələr üzrə dayanıqlı inkişaf meyillərinin davam etdiyini, investisiya fəallığının artdığını, sənaye, kənd təsərrüfatı, nəqliyyat, xarici ticarət və sahibkarlığın dəstəklənməsi istiqamətlərində müsbət nəticələrin əldə olunduğunu göstərir.

# Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatlarının 2026-cı ilin iyun ayında vətəndaşların qəbulu cədvəli

| № | Deputat | Tarix, saat və yer | Əlaqələndirici şəxslər və əlaqə nömrələri |
|---|---|---|---|
| 1. | 1 saylı Sədərək seçki dairəsi üzrə İsmayılov Mahir İslam oğlu | 16.06.2026, saat $11^{00}$, Sədərək rayonu, Sədərək kənd inzibati ərazi dairəsi üzrə nümayəndəliyin binası | Əhmədli Abbas Paşa oğlu, 060-570-70-60 |
| 2. | 2 saylı Dəmirçi seçki dairəsi üzrə Quliyeva Zeynəb Kərim qızı | 16.06.2026, saat $11^{00}$, Sədərək rayonu, Qaraağac kənd inzibati ərazi dairəsi üzrə nümayəndəliyin binası | Novruzov Elçin Abil oğlu, 060-569-45-73 |
| 3. | 3 saylı Maxta seçki dairəsi üzrə Şıxəliyev Emin Arif oğlu | 22.06.2026, saat $16^{00}$, Şərur rayonu, Qorçulu kənd inzibati ərazi dairəsi üzrə nümayəndəliyin binası | Abbasov Hüseyn Mübariz oğlu, 060-515-05-51 |
| 4. | 5 saylı Çomaxtur seçki dairəsi üzrə Nəcəfsoy Pərvin Vidadi qızı | 16.06.2026, saat $15^{00}$, Şərur rayonu, Çomaxtur kənd inzibati ərazi dairəsi üzrə nümayəndəliyin binası | Nəcəfsoy Aqil Yediyar oğlu, 050-405-43-85 |
| 5. | 6 saylı Çərçiboğan seçki dairəsi üzrə Babayeva Aynur Arif qızı | 08.06.2026, saat $15^{00}$, Şərur rayonu, Arbatan kənd inzibati ərazi dairəsi üzrə nümayəndəliyin binası | Məmmədova Nuranə Arif qızı, 070-523-64-12 |
| 6. | 7 saylı Xanlıqlar seçki dairəsi üzrə Novruzov Azad Sevindik oğlu | 18.06.2026, saat $10^{30}$, Şərur rayonu, Sərxanlı kənd inzibati ərazi dairəsi üzrə nümayəndəliyin binası | Bağırov Turqay Faiq oğlu, 060-550-20-20 |
| 7. | 8 saylı Düdəngə seçki dairəsi üzrə Bayramov Mübariz Rəcəb oğlu | 18.06.2026, saat $15^{00}$, Şərur rayonu, Düdəngə kənd inzibati ərazi dairəsi üzrə nümayəndəliyin binası | İmanov Eldar Yaşar oğlu, 051-927-64-62 |
| 8. | 9 saylı Mahmudkənd seçki dairəsi üzrə Şükürov Kamil Qəzənfər oğlu | 11.06.2026, saat $11^{00}$, Şərur rayonu, Məmmədsabir kənd inzibati ərazi dairəsi üzrə nümayəndəliyin binası | Əliyev Mehman Vəli oğlu, 050-647-50-04 |
| 9. | 10 saylı Şərur şəhər seçki dairəsi üzrə Hacıyeva Sevil Məhəmmədəli qızı | 03.06.2026, saat $15^{00}$, Şərur rayonu, Şəhriyar kənd inzibati ərazi dairəsi üzrə nümayəndəliyin binası | İsmayılov Tural Səid oğlu, 060-206-60-60 |
| 10. | 11 saylı Aşağı Yaycı seçki dairəsi üzrə Həsənova Sevinc Nəsrəddin qızı | 19.06.2026, saat $15^{00}$, Şərur rayonu, Yuxarı Yaycı kənd inzibati ərazi dairəsi üzrə nümayəndəliyin binası | Fərəcova Günel Nəsrəddin qızı, 051-757-33-14 |
| 11. | 12 saylı İbadulla seçki dairəsi üzrə Məmmədov Məmməd Kərəm oğlu | 17.06.2026, saat $15^{00}$, Şərur rayonu, Tumaslı, Vayxır və Diyadin kənd sakinləri, Tumaslı kənd inzibati ərazi dairəsi üzrə nümayəndəliyin binası | Məmmədli Çinarə Məmməd qızı, 077-322-86-86 |
| 12. | 13 saylı Püsyan seçki dairəsi üzrə Novruzov Rafiq Novruz oğlu | 25.06.2026, saat $15^{00}$, Şərur rayonu, Oğuzkənd və Aşağı Daşarx kənd sakinləri, Aşağı Daşarx kənd inzibati ərazi dairəsi üzrə nümayəndəliyin binası | İmanov Eldar Yaşar oğlu, 051-927-64-62 |
| 13. | 14 saylı Qarabağlar seçki dairəsi üzrə Zeynalov Təbriz Eyvaz oğlu | 12.06.2026, saat $10^{30}$, Kəngərli rayonu, Qarabağlar kənd inzibati ərazi dairəsi üzrə nümayəndəliyin binası | Əhmədzadə Əhməd İlqar oğlu, 050-804-68-00 |
| 14. | 15 saylı Qıvraq seçki dairəsi üzrə Orucova Xəzəngül Yunis qızı | 04.06.2026, saat $11^{00}$, Kəngərli rayonu, Böyükdüz kənd inzibati ərazi dairəsi üzrə nümayəndəliyin binası | Məmmədova Şənay Bəhlul qızı, 055-503-08-25 |
| 15. | 16 saylı Xok seçki dairəsi üzrə Məmmədov Mövlan Ələddin oğlu | 02.06.2026, saat $14^{00}$, Kəngərli rayonu, Çalxanqala kənd inzibati ərazi dairəsi üzrə nümayəndəliyin binası | Hacızadə Qorxmaz Vahid oğlu, 050-749-63-10 |
| 16. | 17 saylı Nehrəm seçki dairəsi üzrə Cəfərov Rauf Mehralı oğlu | 24.06.2026, saat $15^{00}$, Babək rayonu, Nehrəm qəsəbə inzibati ərazi dairəsi üzrə nümayəndəliyin binası | Abutalıbov Mədət Arif oğlu, 050-740-20-40 |
| 17. | 18 saylı Nehrəm seçki dairəsi üzrə Rzayev Teymur Yaqub oğlu | 05.06.2026, saat $15^{00}$, Babək rayonu, Güznüt kənd inzibati ərazi dairəsi üzrə nümayəndəliyin binası | Axundov Simral Fərəc oğlu, 050-289-05-78 |
| 18. | 19 saylı Babək şəhər seçki dairəsi üzrə Allahverdiyeva Həbibə Rəşad qızı | 04.06.2026, saat $14^{00}$, Babək rayonu, Şəkərabad kənd tam orta məktəbinin binası | Fərzəliyeva Nurşanə İntiqam qızı, 051-923-54-56 |
| 19. | 20 saylı Zeynəddin seçki dairəsi üzrə Həşimov Əli Həsənqulu oğlu | 11.06.2026, saat $11^{00}$, Babək rayonu, Naxışnərgiz kənd inzibati ərazi dairəsi üzrə nümayəndəliyin binası | İbrahimov Namin Cabbar oğlu, 060-398-20-25 |
| 20. | 21 saylı Sirab seçki dairəsi üzrə Qənbərov Qafar Tahar oğlu | 17.06.2026, saat $15^{00}$, Babək rayonu, Kültəpə kənd inzibati ərazi dairəsi üzrə nümayəndəliyin binası | Qənbərli Gülcan Qafar qızı, 060-201-41-01 |
| 21. | 22 saylı Şıxmahmud seçki dairəsi üzrə Məmmədov Üzeyir Səyyad oğlu | 17.06.2026, saat $14^{00}$, Babək rayonu, Xəlilli Kənd Mərkəzi | Həsənəliyev Fərid Rasim oğlu, 060-541-94-95 |
| 22. | 23 saylı Cəhri seçki dairəsi üzrə Bayramova Ülkər İmamqulu qızı | 12.06.2026, saat $12^{00}$, Babək rayonu, Cəhri qəsəbə 2 nömrəli tam orta məktəbin binası | Quliyev Emil Orxan oğlu, 077-545-85-90<br>Əliyeva Fidan Hüseyn qızı, 051-533-71-71 |
| 23. | 24 saylı Naxçıvan şəhər seçki dairəsi üzrə Əliyeva Nuray Yadigar qızı | 16.06.2026, saat $15^{00}$, Naxçıvan şəhəri, Qaraxanbəyli kənd inzibati ərazi dairəsi üzrə nümayəndəliyin binası | Seyidli Sabirə Azər qızı, 099-308-00-47 |
| 24. | 25 saylı Naxçıvan şəhər seçki dairəsi üzrə Məmmədova Xumar Şəmsi qızı | 03.06.2026, saat $11^{00}$, Naxçıvan şəhəri, 4 saylı sahə inzibati ərazi dairəsi üzrə nümayəndəliyin binası | Hüseynli İradə Məzayıl qızı, 070-575-51-36 |
| 25. | 26 saylı Naxçıvan şəhər seçki dairəsi üzrə Orucov Asəf Yunis oğlu | 22.06.2026, saat $17^{00}$, Naxçıvan şəhəri, Hacıniyyət kənd sakinləri, səyyar qəbul | Əliyev Səfər Səxavət oğlu, 060-485-25-85<br>Məmmədova Ziniyət Zakir qızı, 060-544-23-13 |
| 26. | 27 saylı Naxçıvan şəhər seçki dairəsi üzrə Məmmədzadə Vüsal Əziz oğlu | 11.06.2026, saat $10^{00}$, Naxçıvan şəhəri, 5 saylı Mənzil İstismar İdarəsinin inzibati binası | Məmmədli Röyal Vüsal oğlu, 060-200-54-64 |
| 27. | 28 saylı Naxçıvan şəhər seçki dairəsi üzrə Babayeva Təhminə Adil qızı | 12.06.2026, saat $17^{00}$, Naxçıvan şəhəri, Nəriman Nərimanov küçəsi, səyyar qəbul | Cəlilzadə Səkinə Əhməd qızı, 051-310-55-38 |
| 28. | 29 saylı Naxçıvan şəhər seçki dairəsi üzrə Məmmədov Bəhruz Qibləli oğlu | 12.06.2026, saat $15^{00}$, Naxçıvan şəhəri, 17 nömrəli tam orta məktəbin binası | Rəhimov Vüsal Musa oğlu, 060-333-00-23 |
| 29. | 30 saylı Naxçıvan şəhər seçki dairəsi üzrə Əhmədova Şəhla Hüseyn qızı | 02.06.2026, saat $12^{00}$, Naxçıvan şəhəri, 12 nömrəli tam orta məktəbin binası | Əhmədova Arzu Rza qızı, 060-384-34-30 |
| 30. | 31 saylı Naxçıvan şəhər seçki dairəsi üzrə Məmmədov Nazim Məmməd oğlu | 10.06.2026, saat $15^{00}$, Naxçıvan şəhəri, 14 nömrəli tam orta məktəbin binası | Hüseynov Sərvər Zeyqəm oğlu, 050-364-05-06 |
| 31. | 32 saylı Naxçıvan şəhər seçki dairəsi üzrə Qasımov Əziz Kamal oğlu | 04.06.2026, saat $16^{00}$, Naxçıvan şəhəri, Əcəmi məhəlləsi, səyyar qəbul | Rəhimov İntiqam Rəhim oğlu, 055-873-85-86 |
| 32. | 33 saylı Naxçıvan şəhər seçki dairəsi üzrə Dünyamalıyeva Aysel Məmməd qızı | 03.06.2026, saat $11^{00}$, Naxçıvan şəhəri, Əcəmi məhəlləsi, 1, 2, 3, 10, 37, 38, 39, 40 nömrəli binalar, səyyar qəbul | Əhmədova Arzu Rza qızı, 060-384-34-30 |
| 33. | 34 saylı Şahbuz şəhər seçki dairəsi üzrə Rüstəmova Gülşad Qəzənfər qızı | 10.06.2026, saat $11^{00}$, Şahbuz rayonu, Nursu kənd inzibati ərazi dairəsi üzrə nümayəndəliyin binası | Rzayev Əli Firudin oğlu, 050-337-69-44 |
| 34. | 35 saylı Kolanı seçki dairəsi üzrə Tarverdiyeva Gülxarə Budaq qızı | 11.06.2026, saat $11^{00}$, Şahbuz rayonu, Güney Qışlaq kənd inzibati ərazi dairəsi üzrə nümayəndəliyin binası | Məmmədli Səid Mehrab oğlu, 060-400-30-51 |
| 35. | 36 saylı Badamlı qəsəbə seçki dairəsi üzrə Məmmədov Ramiz Gülməmməd oğlu | 05.06.2026, saat $15^{00}$, Babək rayonu, Vayxır kənd inzibati ərazi dairəsi üzrə nümayəndəliyin binası | Qasımov Bəhlul Fərəməz oğlu, 060-543-24-29 |
| 36. | 37 saylı Culfa şəhər seçki dairəsi üzrə Əliyev Əjdər Zahid oğlu | 11.06.2026, saat $10^{00}$, Culfa şəhər inzibati ərazi dairəsi üzrə nümayəndəliyin binası | Məmmədov Rəhman Abasət oğlu, 055-592-42-18, 077-569-43-65 |
| 37. | 38 saylı Yaycı seçki dairəsi üzrə Xudiyev Rza Əli oğlu | 19.06.2026, saat $11^{00}$, Culfa rayonu, Dizə kənd inzibati ərazi dairəsi üzrə nümayəndəliyin binası | Canbaxşiyev Səməd Canbağış oğlu, 050-263-86-85 |
| 38. | 39 saylı Bənəniyar seçki dairəsi üzrə Abdullayev Qəzənfər İsmayıl oğlu | 03.06.2026, saat $11^{00}$, Culfa rayonu, Ərəzin kənd inzibati ərazi dairəsi üzrə nümayəndəliyin binası | Əsgərov Elnur Lazar oğlu, 055-299-15-99, 060-211-82-42 |
| 39. | 40 saylı Saltaq seçki dairəsi üzrə Canməmmədov Canməmməd Ramiz oğlu | 11.06.2026, saat $10^{00}$, Culfa rayonu, Teyvaz kənd inzibati ərazi dairəsi üzrə nümayəndəliyin binası | Gözəlov Zəkəriyyə Tahir oğlu, 060-289-61-62, 050-289-61-62 |
| 40. | 41 saylı Ordubad şəhər seçki dairəsi üzrə Məmmədov Bəxtiyar İbrahim oğlu | 11.06.2026, saat $11^{00}$, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin inzibati binası<br>25.06.2026, saat $11^{00}$, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin inzibati binası | Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının Vətəndaşların qəbulu sektoru, 036-544-01-43 |
| 41. | 42 saylı Aşağı Əndəmic seçki dairəsi üzrə Abdullayev Arzu Kamal oğlu | 04.06.2026, saat $15^{00}$, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin inzibati binası<br>18.06.2026, saat $15^{00}$, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin inzibati binası | Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının Vətəndaşların qəbulu sektoru, 036-544-01-43 |
| 42. | 43 saylı Vənənd seçki dairəsi üzrə Nəbiyev Ramil Paşa oğlu | 09.06.2026, saat $15^{30}$, Ordubad rayonu, Vələver kənd inzibati ərazi dairəsi üzrə nümayəndəliyin binası | Əhmədov Ziyad Mehman oğlu, 070-280-75-01 |
| 43. | 44 saylı Dəstə seçki dairəsi üzrə Rzayev Elmar İlqar oğlu | 05.06.2026, saat $11^{00}$, Ordubad rayonu, Çənnəb kənd inzibati ərazi dairəsi üzrə nümayəndəliyin binası | Rzayev Elmir Elmar oğlu, 055-317-62-01 |
| 44. | 45 saylı Sabirkənd seçki dairəsi üzrə Əhmədova Gülxarə Manaf qızı | 10.06.2026, saat $12^{00}$, Ordubad rayonu, Tivi kənd inzibati ərazi dairəsi üzrə nümayəndəliyin binası | Əlizadə Polad Pərviz oğlu, 060-441-26-29 |

# Naxçıvanda baramaçılıq sahəsinin yenidən dirçəldilməsi məqsədilə atılan addımlar bəhrəsini verməkdədir

### Dünəndən bu günə ipəklə gələn yol

Ulu və qədim Naxçıvan. Duz yüklü, ipək zərafətli, meyvə təravətli nə karvanlar keçib Naxçıvanın sinəsindən dünyaya. Qazançı, Əylis körpüləri, karvansaralar, Batabatdakı Fərhad evi və daha sadalamadığımız onlarla abidələr bu gün də karvan yollarının izlərini özündə daşımaqdadır. Naxçıvan bir çox məhsulları və yerləşdiyi əlverişli coğrafi mövqeyi ilə ticarət yollarının kəsişdiyi, mədəniyyətlərin qovuşduğu Nuhun diyarı kimi tarixdə əhəmiyyətli yer tutub. Naxçıvan Böyük İpək Yolunun əsas dayanacaqlarından olub. Bu marşrutla Şərqdən Mərkəzi Avropa ölkələrinə əvvəlcə ipək, daha sonra ədviyyat, qızıl, gümüş, qiymətli daşlar, Avropadan Şərq ölkələrinə isə qalay, sink, civə, mahud parça və sair daşınırdı. İpək Yolu Dərbənd, Şirvan, Şəki, Beyləqan, Gəncə, Qəbələ, Təbriz və Naxçıvanda ipəkçiliyin





inkişafına güclü təkan vermiş, onların hər birinin ipək ticarəti mərkəzinə çevrilməsinə şərait yaradaraq məşhurlaşmasına səbəb olmuşdu.

İpəkçilik və ipək parça, xüsusilə də basmanaxışlı parçalar Naxçıvan əhalisinin məişətində əsrlərboyu mövcud olmuşdur. Bölgə ərazisində təsərrüfatın bu sahəsinin geniş yayıldığı yer isə Ordubad idi.

Tarixi mənbələr göstərir ki, 1926-cı ildə ipək fabriklərinin istehsal etdiyi xam ipək materialları əsasında Ordubadda corab-kəlağayı fabriki açılmış, Vənənd, Əylis, Üstüpü, Çənnəb, Parağa və Bist kəndlərində onun şöbələri yaradılmışdı. Fabrikdə ipək, yarım ipək corablar, baş və cib yaylıqları istehsal olunurdu. 1928-1929-cu illərdə 12 kiçik ipək fabriki birləşdirilərək Ordubad İpək Kombinatı yaradılıb. Naxçıvan Muxtar Respublikasının blokada şəraitinə düşməsi ilə əlaqədar istehsal həcmi azalmış, qısa bir müddətdə tənəzzülə uğramışdır.

### Tarixi bağdan "ipək bağı"na

Təbii sərvətləri, əvəzsiz məhsulları ilə tarixən dünya bazarında özünəməxsus yer tutan Naxçıvanda ipəkçilik önəmli rola malik olmuş, iqtisadiyyatın inkişafına, ekoloji mühitin bərpasına, əhalinin məşğulluğunun təmin olunmasına mühüm töhfələr vermişdir. Naxçıvanda ənənəvi baramaçılıq sahəsinin yenidən dirçəldilməsi, ipəkçiliyin şöhrətinin özünə qaytarılması məqsədilə atılan addımlar bu gün öz bəhrəsini verməkdədir.

"Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı"nda ənənəvi məşğuliyyət növü olan baramaçılıq və ipəkçiliyin bərpa edilməsi prioritetlərdən biri kimi müəyyənləşdirilib. 2023-cü ilin əvvəllərindən başlayaraq hazırlanan pilot layihə 35 ildən sonra ənənələrin bərpasına rəvac verib. İlk olaraq yem bazasında çatışmazlıqları aradan qaldırmaq üçün yeni tut bağlarının salınmasına başlanılıb. Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyi və Türkiyə Respublikası Kənd Təsərrüfatı və Meşəçilik Nazirliyi ilə birgə Ordubad rayonunun Əylis düzündə Ümummilli Lider Heydər Əliyevin 100 illiyi münasibətilə 600 ədəd tut tingindən ibarət "Türkiyə-Azərbaycan ipək bağı" salınıb. Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin dəstəyi ilə 20 min, o cümlədən Dövlət Proqramına uyğun olaraq alınan 18 min 381 tut tinginin əkini aparılıb. Qulluq sayəsində bağ bu gün yem bazası kimi istifadəyə yararlıdır.

Bu sahənin yenidən dirçəldilməsi yalnız iqtisadi amillərlə ölçülə bilməz. Bu, ənənəyə sadiqlik, dəyərlərin yaşadılmasına göstərilən səylərin nəticəsi olaraq tarixi bağlılığın təzahürü kimi bu gün özünü görülən real işlərdə təcəssüm etdirməkdədir.

### Yüksək məhsuldarlıq uğrunda

2024-cü ildə kümxanalar hazırlanıb, Çin Xalq Respublikasından 30 qutu ipəkqurdu toxumu gətirilib. Gətirilən toxumlar Akademik Həsən Əliyev adına Naxçıvan Kənd Təsərrüfatı Elmi-Tədqiqat İnstitutunda inkubasiyaya qoyulub, əldə olunan ipəkqurdları kümçülərə əvəzi ödənilmədən paylanılıb. 2025-ci ildə Naxçıvan kümçülərinə verilən 40 qutudan 1757 kq yaş barama əldə edilib. Hər iki il Naxçıvan ölkə üzrə göstəricilərinə görə ikinci yerdə bərqərar olub.





Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyinin sektor müdiri Rübabə Hüseynzadə bizimlə söhbətində bildirir ki, baramaçılığın inkişafı istiqamətində tədbirlər hazırda da davam etdirilir. Cari ildə muxtar respublikaya 50 qutu ipəkqurdu toxumu gətirilib. İnkubasiyaya qoyulduqdan sonra muxtar respublikanın bütün bölgələrinə paylanılıb. Davamlı olaraq yerlərdə olur, monitorinqlər aparır, məhsuldarlığın əldə olunması üçün lazımi tövsiyələrimizi veririk. Məqsəd Naxçıvanda baramaçılığın yenidən inkişafına dəstək olmaq, bu sahəyə marağı artırmaqla ilbəil daha yaxşı göstəricilərə nail olmaqdır.

### Bu işə sevgi ilə yanaşmaq lazımdır

Yolumuzu elə tarixən ipəyi ilə məşhur olan Ordubada salırıq. Sabirkənddə kümxanaya daxil oluruq. Tut yarpaqlarının iyinə bülənd olmuş kümxanada hər kəs çalışır. Müsahibimiz Xəlil Fərəcov deyir: "Birinci il bir qutudan 100 kq məhsul əldə etdik, yəni plandan artıq nəticəyə nail olduq. Hətta bunun üçün mükafatlandırıldım da. Bu sahə bizə yad deyil. Ta keçmişlərdən Ordubad əhalisi bu işlə geniş məşğul olmuş, öz dolanışıqlarını təmin etmişlər. Kəndlərin əksəriyyətində tut ağacları yetişdirilirdi ki, bu da baramaçılıq üçün yem bazası təşkil edirdi. 40 il bundan əvvəl ailəlikcə bu işlə məşğul olmuşuq. 35 ildən sonra yenidən baramaçılığın bərpası bizim üçün də çox sevindirici oldu. Ümidvaram ki, insanların bu sahəyə marağı artacaq və rayonumuzun baramaçılıq şöhrəti özünə qayıdacaqdır".

"Bu işə sevgi ilə yanaşmaq lazımdır", – deyə 59 yaşlı Zəminə Rüstəmova söhbətimizə qoşulur: "Bizim ev kəndin başındadır. Hər gün səhər 6-dan durub yola çıxıram. Kümxanaya çatan kimi səliqə-sahmana fikir verir, qurdları yemləyirəm. Bu iş səbir və sevgi tələb edir. Bəzən onları əzizləyirəm. 1989-cu ildə ailəmiz artıq üçüncü il idi ki, baramaçılıqla məşğul olurdu. Yaxşı baxdığımıza görə hər il bizə verilən qutu sayı artırdı. Məlum vəziyyətlə əlaqədar bu sahə də iflic oldu. Amma yenidən baramaçılıqla məşğul olmağım mənə ruh verir. Həvəslənirəm. Üçüncü ildir, yenə bu sahədə çalışıram, bu il də yüksək məhsuldar-



lığa nail olacağımıza inanıram".

Yol bizi Vənəndə aparır. Həmsöhbətim Yaqut Babayeva deyir ki, bu, olduqca həssas işdir: "İpək qurdlarını bəsləmək, onların tələf olmasına yol verməmək üçün davamlı qulluq etməlisən. 30-40 gün ərzində gecəni gündüzünə qatıb kümxananın təmizliyinə, qurdların yemlənməsinə, rütubətliliyinin və temperaturunun müəyyənləşdirilmiş norma daxilində olmasına diqqət etməlisən. Əks halda məhsuldarlıqdan söhbət belə gedə bilməz".

### Baramaçılıqla yenidən məşğul olmaq zövq verir

"Doğulduğum Üstüpü kəndində əvvəllər haradasa 20 ailə baramaçılığa öz töhfəsini verirdi. Bizim ailə də 5 il sərasər bu işlə məşğul olub. Mən özüm hazırda Şəhriyar qəsəbəsində yaşayıram, amma torpaqdan əl götürməmişəm, təsərrüfatla məşğulam, əkirəm becərirəm. Bununla belə, baramaçılıq mənim üçün olduqca zövqlü bir işdir. 5 qutu götürmüşəm, hər qutudan 70-80 kq məhsul əldə edəcəyimə ümidvaram. İpəkqurdu elədir ki, gərək nazını çəkəsən, mütləq təzə yarpaq olmalıdır, ona görə yetişdirilmə dövrü məhz tut ağaclarının yeni yarpaqladığı dövrə təsadüf edir. İki saatdan bir yemlənməli, qurumuş yarpaqlar vaxtında ətrafdan təmizlənməlidir. Hər növ həşəratdan qorumalısan, davamlı müşahidə altında saxlamalısan. Bu işdə təcrübən varsa, sənə xoş və maraqlı gələcək", – deyir Ayaz Abdullayev.

Culfa rayonunun Kırna və Ərəzin kəndlərində olan kümxanalara da baş çəkirik. Çalışanların əksəriyyəti qadınlardır. Əgər əvvəllər baramaçılıq daha çox Ordubad rayon əhalisi üçün məşğuliyyət sahəsi idisə, indi muxtar respublikanın dörd bir yanında kümçülər yetişdirilir. Bu da muxtar respublikada baramaçılığın inkişafı üçün hesablanmış düzgün fəaliyyət istiqamətidir. Ərəzin kənd sakini Aysel Zeynallı 3 ildir ki, 6 nəfər qadınla birgə bu sahədə çalışır. Deyir ki, keçən il 4 qutudan 224 kiloqram yaş barama əldə etdik. Bu il daha çox məhsuldarlığa nail olacağımıza inanıram.

Zəhmət və sevgi olan yerdə nəticə qaçınılmazdır. Təcrübəli kümçülərin cəlb edilməsi, habelə 3 il ərzində qazanılan təcrübə, göstərilən dövlət dəstəyi muxtar respublikada baramaçılığın yeni tarixinin yazıldığını göstərir. Bu tarix, sadəcə, baramaçılığı deyil, bu sahəyə yenidən həyat verənləri də yaşadacaq.

✍ **Ruhiyyə RƏSULOVA**

# Torpağı ovuclayan qızıl ovuclayar



***İndi ilin elə vədəsidir ki, kənd adamının gününün çoxu əkin-bacada keçir. Qədim Naxçıvanın ən böyük əkinçilik rayonu olan Şərurda hansı əkin sahəsinə üz tutsaq, orada zəhmətkeş kənd adamlarını, torpağa bağlı insanları görürük. Ömrünü təsadüfi qazanclara deyil, həqiqi zəhmətə bağlayan zəhmət adamlarını. Bu rayonda torpağın dilini bilən zəhmətkeş insanlar çoxdur. Onlardan biri də Şərur rayon Düdəngə kənd sakini Mübariz Şirəliyevdir.***

O, torpağa bağlılığı, zəhmətə sevgini ata-babalarından öyrənib. Torpağı əkib-becərməyi özünün alın yazısı bilib və bununla qürur duyub. Yaşa dolduqca, torpağın sonsuz səxavətinin şahidi olduqca ona daha çox bağlanıb. O, torpağı əkib-becərdikcə torpaq da onun başını uca edib. Ötən il zəhmətkeş əkinçinin zəhməti hədər getməyib, 150 tondan artıq taxılı olub. Cari ildə Zeyvə və Düdəngə kəndlərində 23 hektar taxıl əkini aparıb. Taxıl sahəsində bütün aqrotexniki işlər həyata keçirilib.

Deyir ki, torpaq suya susadığı kimi insanoğlunun zəhmətinə, alın tərinə də möhtacdır. Hər zaman ondan qulluq tələb edir, onu zəhmətə səsləyir. Dünyada halallıq axtaran əliqabarlı insanlar torpağın bu harayına həmişə hay verib, ona üz tutublar. Zəhmət adamı deyir ki, əkinçilik də digər işlər kimi təcrübə tələb edir. İşlədikcə, torpağın dilini öyrəndikcə daha çox məhsul götürürsən. Kənd təsərrüfatı bitkiləri vaxtında suvarılmadıqda, hətta vaxtından əvvəl və ya normadan artıq suvarıldıqda belə məhsuldarlığa təsir göstərir. O da çalışdığı illər ərzində topladığı təcrübəyə əsaslanaraq torpağı aqrotexniki qaydalara uyğun olaraq əkib-becərməyə çalışır. Belə olduqda torpaq daha çox məhsul verir. Taxılçılıqda yüksək məhsuldarlığa nail olmağın müxtəlif şərtləri vardır. Bunlardan biri də növbəli əkin sisteminə əməl etməkdir. Belə halda taxıl sahəsində alaq otları olmur və yaxud çox az olur. Alaq otlarının olmamağı taxılın yaxşı inkişafına və bol məhsul götürüləcəyinə zəmin yaradır. Onu da qeyd edim ki, ehtiyac olduqda alaq otlarına qarşı kimyəvi mübarizə üsulundan da istifadə edirik. Yüksək məhsuldarlığın əsas şərtlərindən biri də torpağa vaxtında gübrələrin verilməsidir. Bu da, təbii ki, yüksək məhsuldarlığa təminat verir.

Zəhmətkeş müsahibim onu da qeyd edir ki, bu il fevralın 21-də Prezident İlham Əliyevin imzaladığı Sərəncamla "Naxçıvan Muxtar Respublikasında su ehtiyatlarından səmərəli istifadənin təmin edilməsinə dair 2026-2030-cu illər üçün Tədbirlər Planı" təsdiq edilib. 24 fevral 2026-cı ildə bu tədbirlərin davamı olaraq Prezident İlham Əliyev "Naxçıvan Muxtar Respublikasında əhalinin içməli su ilə təminatının yaxşılaşdırılmasına dair əlavə tədbirlər haqqında" Sərəncam imzalayıb. Sərəncam "Naxçıvan Muxtar Respublikasında su ehtiyatlarından səmərəli istifadənin təmin edilməsinə dair 2026-2030-cu illər üçün Tədbirlər Planı"na uyğun olaraq Naxçıvan Muxtar Respublikasının bir sıra yaşayış məntəqələrində əhalinin içməli su ilə təminatının yaxşılaşdırılması məqsədilə imzalanıb. 38 yaşayış məntəqəsində 40 ədəd subartezian quyusu qazılıb əhalinin istifadəsinə veriləcək. Bu sərəncamlar qədim diyarda dayanıqlı su mənbələrindən istifadənin genişləndirilməsi və mövcud resurslardan daha səmərəli yararlanmaq, su təhlükəsizliyinin təmin olunması baxımından mühüm əhəmiyyət daşıyır. Tanrının heç nəyi əsirgəmədiyi bu diyarda zəhmətkeş insanların torpağa qarışan alın təri ilə torpağa atılan hər toxum cücərib böyük qollu-budaqlı ağaca dönür. Bu yerin sakinləri onlara lütf olunan hər nemətin qədrini bilir, bunu özünə borc hesab edir.

Bu gün zəhmətkeş kənd adamı dövlətimizin qayğısı ilə əhatə olunub. Bütün bunlardan səmərəli istifadə edən zəhmətkeş insanlar kənd təsərrüfatı sahəsinin inkişafına töhfə verməklə yanaşı, öz məşğulluğunu təmin edir, həm də bol məhsul istehsal etməklə ixrac imkanlarını artırır.

✍ **Ramiyə ƏKBƏROVA**

# Yeni çağın müdafiəsi: kibertəhlükəsizlik sahəsində kadr hazırlığı strateji məsələdir



Rəqəmsal dünya inkişaf etdikcə təhlükəsizlik anlayışı da dəyişir. Əvvəllər məlumatı qorumaq yalnız texniki məsələ sayılırdısa, bu gün kiber təhdidlər dövlətlərdən tutmuş adi istifadəçilərə qədər hər kəsi əhatə edir. Bank məlumatları, şəxsi hesablar, idarə sistemləri bütün bunlar düzgün müdafiə olunmadıqda risk altına düşür. Bu səbəbdən kibertəhlükəsizlik üzrə bilik və bacarıqlara malik kadrların hazırlanması artıq lüks deyil, zərurətdir. Ali təhsil müəssisələri də bu çağırışa uyğunlaşmağa çalışır, informasiya texnologiyaları sahəsində tədrisi genişləndirir və gəncləri rəqəmsal mühitin təhlükələrinə qarşı hazırlayır. Mövzu ilə bağlı suallara aydınlıq gətirmək üçün Naxçıvan Dövlət Universitetinin Memarlıq və mühəndislik fakültəsinin, Elektronika və informasiya texnologiyaları kafedrasının müəllimi Gültac Zeynalzadə ilə görüşdük.

***– Kibertəhlükəsizlik üzrə kadr hazırlığı necə təşkil olunur?***

– Naxçıvanda kibertəhlükəsizlik üzrə kadr hazırlığı son illərdə daha sistemli və strateji yanaşma əsasında təşkil olunur. Tədris proqramları hazırlanarkən həm milli təhlükəsizlik prioritetləri, həm də beynəlxalq təcrübə nəzərə alınır. Şəbəkə təhlükəsizliyi, kriptoqrafiya, əməliyyat sistemlərinin qorunması, kiber risklərin idarə olunması kimi tədris istiqamətləri tələbələrə kompleks yanaşma qazandırır. Eyni zamanda proqramlar yalnız nəzəri biliklərlə məhdudlaşmır, praktiki komponent xüsusi yer tutur. Məqsəd təkcə proqram təminatını bilən mütəxəssis yox, riskləri analiz edən, təhlükələri proqnozlaşdıran və strateji düşünən kadr yetişdirməkdir. Bu sahədə magistr səviyyəsində elmi-tədqiqat istiqamətinin gücləndirilməsi də prioritetlər sırasındadır. Ümumilikdə, regionda rəqəmsallaşmanın artması kadr hazırlığını daha da aktuallaşdırır və universitetlərin məsuliyyətini artırır.

***– Süni intellekt və digər müasir texnologiyaların kibertəhlükəsizlik təhsilində rolu nədir?***

– Müasir mərhələdə kibertəhlükəsizlik sahəsi artıq ənənəvi müdafiə mexanizmləri ilə məhdudlaşmır və süni intellekt texnologiyaları bu istiqamətdə yeni yanaşmalar formalaşdırır. Tədris prosesində maşın öyrənməsi modelləri, anomaliya aşkarlanması metodları və böyük verilənlərin analizi kimi müasir istiqamətlərə xüsusi yer ayrılır. Tələbələr real şəbəkə trafik nümunələri üzərində təhlükəli davranış modellərinin identifikasiyasını və risk indikatorlarının təhlilini praktiki şəkildə mənimsəyirlər. Bununla yanaşı, süni intellekt əsaslı təhlükə aşkarlama sistemlərinin işləmə prinsipləri elmi əsaslarla izah edilir, onların effektivliyi və tətbiq məhdudiyyətləri müqayisəli şəkildə təhlil olunur. Bu yanaşma tələbələrdə yalnız texniki bacarıq deyil, həm də tənqidi və analitik düşüncə formalaşdırır. Avtomatlaşdırılmış hücum və müdafiə mexanizmlərinin sürətli inkişafı göstərir ki, gələcəyin kibertəhlükəsizlik mütəxəssisi, eyni zamanda məlumat analitiki və strateji risk qiymətləndiricisi olmalıdır. Məhz bu səbəbdən tədris proqramları texnoloji inkişafın sürətinə uyğun olaraq davamlı şəkildə təkmilləşdirilir və müasir rəqəmsal tələblərə uyğunlaşdırılır.




Tədris proqramlarında real təhlükə modelləri xüsusi yer tutur. Kiberhücumlar, zərərli proqram təminatı və sosial mühəndislik kimi aktual risklər praktiki nümunələrlə izah olunur. Tələbələr laboratoriya mühitində zəifliklərin aşkarlanması və aradan qaldırılması üzrə tapşırıqlar yerinə yetirirlər. Simulyasiya yönümlü təlim metodları tətbiq olunur ki, bu da onların qərarvermə bacarığını gücləndirir. Tələbələr real hücum vəziyyətlərini təhlil edir və müdafiə planları hazırlayırlar. Bu yanaşma onları yalnız texniki icraçı kimi deyil, həm də analitik və strateji düşünən mütəxəssis kimi formalaşdırır. Belə təcrübə tələbələrə real iş mühitində operativ və məsuliyyətli hərəkət etməyi öyrədir.

***– Laboratoriyalar və simulyasiya layihələri kibertəhlükəsizlik məsələlərinə hansı töhfəni verir?***

– Kibertəhlükəsizlik sahəsində yalnız nəzəri bilik kifayət etmir, praktik təcrübə əsas rol oynayır. Bu səbəbdən laboratoriya məşğələləri tədrisin mərkəzi hissəsinə çevrilib və tələbələrə real iş şəraitinə yaxın təcrübə qazandırır. Virtual şəbəkə mühitləri yaradılır, hücum və müdafiə tapşırıqları simulyasiya olunur ki, tələbələr təhlükəsizlik boşluqlarını aşkar etməyi və onları aradan qaldırmağı öyrənsinlər. Təhlükəsizlik yönümlü praktik yarışmalar tələbələrin problem həll etmə, strateji düşüncə və sürətli qərarvermə qabiliyyətlərini inkişaf etdirir. Komanda layihələri isə əməkdaşlıq, koordinasiya və məsuliyyət hissini gücləndirir, tələbələr real iş mühitində komanda şəklində fəaliyyət göstərməyi öyrənirlər. Kibertəhlükəsizlik sahəsində etik çərçivə xüsusi əhəmiyyət daşıyır. Tədris proqramlarında informasiya təhlükəsizliyi qanunvericiliyi, şəxsi məlumatların qorunması prinsipləri və kibercinayətkarlıqla mübarizə mexanizmləri də geniş şəkildə izah olunur.

***– Gələcəkdə bu istiqamətdə hansı yeniliklər gözlənilir?***

– Gələcəkdə kibertəhlükəsizlik üzrə kadr hazırlığında süni intellekt əsaslı adaptiv öyrənmə sistemləri geniş tətbiq olunacaq. Simulyasiya mühitləri daha real və kompleks hücum modellərini əhatə edəcək. "Zero Trust" arxitekturası, bulud təhlükəsizliyi, IoT mühitlərinin qorunması və kvant kriptoqrafiyası kimi istiqamətlər tədris proqramlarına daha dərindən inteqrasiya ediləcək. Bundan əlavə, fərdiləşdirilmiş tədris yanaşması vasitəsilə tələbələrin fərdi bacarıq və maraqları nəzərə alınacaq. Hesab edirəm ki, yaxın illərdə kibertəhlükəsizlik mütəxəssisi yalnız texniki icraçı deyil, strateji qərarverici və risk analitiki kimi formalaşacaq. Bu isə regionun rəqəmsal təhlükəsizliyinin güclənməsinə mühüm töhfə verəcək.

***– Müsahibə üçün sağ olun.***

**Günay HACIYEVA**

*Dünya dəyişir, biz isə bu dəyişikliyin mərkəzində hər gün bir az daha sürətlə qaçırıq. Artıq həyətlərdə top dalınca qaçan uşaq səslərini planşetlərin, smartfonların ekranından gələn süni melodiyalar əvəz edir. Bir vaxtlar nağıl kitablarının vərəqlərindəki sehrli dünyalara səyahət edən uşaqlar, indi sosial şəbəkələrin sonsuz və çox vaxt nəzarətsiz axınında özlərinə yer axtarırlar. Lakin bu rəqəmsal okean həm imkanlarla dolu bir xəzinə, həm də fırtınalı və təhlükəli bir dərinlikdir.*




**Elnurə CƏFƏROVA**

# Yeni eranın təhlükəsizlik addımı

Azərbaycan Respublikası Prezidentinin "Uşaqların rəqəmsal mühitdə zərərli məzmun və təsirlərdən qorunması ilə bağlı tədbirlər haqqında" 2026-cı il 27 fevral tarixli Sərəncamı məhz bu dərinlikdə boğulmamaq, uşaqlarımızın təmiz dünyasını rəqəmsal mühitin zərərli toz-torpağından qorumaq üçün atılmış tarixi addımlardan biridir. Ölkəmizdə rəqəmsal texnologiyaların geniş tətbiqi sosial şəbəkələrin gündəlik həyatda əhəmiyyətli yer tutmasına səbəb olsa da, uşaqların bu aləmə çox erkən yaşda daxil olması yeni təhlükəsizlik çağırışlarını da bərabərində gətirir. Bu, hüquqi tənzimləmə ilə yanaşı, həm də gələcəyin mənəvi və psixoloji təməllərini qorumaq üçün qurulan bir sipərdir.

Tez-tez şahid oluruq ki, uşaqlar sosial şəbəkələrə daxil olarkən hələ həyatın acı-şirinini ayırd edə bilməyəcək yaşda olurlar. Beynəlxalq təşkilatların və elmi-tədqiqat qurumlarının araşdırmaları da göstərir ki, uşaqların rəqəmsal mühitdə qorunması, onların psixoloji rifahı və sağlam inkişafı üçün xüsusi hüquqi müdafiə mexanizmlərinin tətbiqi qaçılmazdır. Sərəncama əsasən artıq sosial şəbəkələrdə yaş məhdudiyyəti ilə bağlı konkret hüquqi aktlar hazırlanacaq. Bu da o deməkdir ki, hər qapı hər kəsə, xüsusən də azyaşlılara nəzarətsiz şəkildə açılmayacaq.

Bu böyük işin təməli həm də məktəblərdən keçir. Belə ki, təhsil müəssisələrində mobil və elektron cihazların istifadəsinə dair yeni qaydalar müəyyən ediləcək, tədris proqramlarına isə rəqəmsal savadlılıq və kibertəhlükəsizlik mövzuları daxil ediləcəkdir. Biz uşaqlara təkcə oxumağı yox, bu nəhəng virtual dünyada özlərini müdafiə etməyi də öyrətməliyik. Eyni zamanda valideynlər, müəllimlər və uşaqlar üçün geniş maarifləndirmə proqramları həyata keçiriləcək, uşaqların rəqəmsal rifahı ilə bağlı elmi tədqiqatlar təşviq olunacaqdır.

İndi bizim borcumuz uşaqların o səssiz səsini eşitmək, onların şəxsi həyatını və ləyaqətini dövlət səviyyəsində qorumaqdır. Bu Sərəncam rəqəmsal dünyanın "vəhşi" qaydalarına qarşı bir mədəniyyət və təhlükəsizlik manifestidir. Çünki bu gün texnologiya həyatımızın ayrılmaz hissəsinə çevrilib, amma onun yaratdığı imkanlarla yanaşı, təhlükələri də artır. Uşaqlar isə bu dünyanın ən həssas və müdafiəyə ehtiyacı olan iştirakçılarıdır. Onlar bəzən paylaşdıqları bir şəkilin, yazdıqları bir şərhin gələcəkdə necə nəticələr doğura biləcəyini dərk etmirlər. Məhz buna görə də onların əvəzinə düşünmək, onları qorumaq və maarifləndirmək həm valideynlərin, həm təhsil müəssisələrinin, həm də dövlət qurumlarının üzərinə düşən mühüm məsuliyyətdir.

Rəqəmsal mühitdə hər bir məlumat sürətlə yayılır, silinməsi isə, demək olar ki, mümkünsüz olur. Bir anlıq diqqətsizlik illərlə davam edən psixoloji təzyiqə, kiberzorakılığa və sosial təcridə səbəb ola bilər. Bu baxımdan, qəbul olunan qərarlar həm də cəmiyyətin gələcəyinə yönəlmiş strateji addımdır. Çünki sağlam, güvənli və ləyaqətli mühitdə böyüyən uşaqlar sabahın məsuliyyətli vətəndaşları olacaq.

Unutmayaq ki, bu gün uşaqların rəqəmsal dünyada qoyduğu izlər, sabah onların həyat yoluna çevriləcək. O izlər ali təhsil seçimində, karyera quruculuğunda qarşılarına çıxa bilər. Ona görə də biz onların gələcəyini də düşünməliyik.

# Azərbaycan qlobal kibertəhlükəsizlik cəbhəsində söz sahibi olan rəqəmsal güc mərkəzinə çevrilir



Azərbaycan Respublikası son illərdə bu istiqamətdə həyata keçirdiyi köklü islahatlarla beynəlxalq arenada öz rəqəmsal qüdrətini nümayiş etdirdi və qlobal kibertəhlükəsizlik reytinqlərində 21 pillə birdən yüksələrək mühüm strateji qələbəyə imza atdı. Bu nailiyyət, həmçinin ölkəmizin milli təhlükəsizlik arxitekturasının yeni və müasir bir mərhələyə qədəm qoyduğunun bariz göstəricisidir. Azərbaycanın bu uğurlu yüksəlişinin əsasında Prezident İlham Əliyevin 2023-cü il 28 avqust tarixli Sərəncamı ilə təsdiqlənmiş "Azərbaycan Respublikasının informasiya təhlükəsizliyi və kibertəhlükəsizliyə dair 2023-2027-ci illər Strategiyası" dayanır. Sözügedən sənəd ölkənin informasiya təhlükəsizliyi sahəsindəki fəaliyyətini pərakəndəlikdən çıxararaq vahid, mərkəzləşdirilmiş və konseptual bir müstəviyə daşıdı.

Məsələyə münasibət bildirən AKTA eksperti Hüseyn Əsgərli də bu irəliləyişi ölkədə son illər rəqəmsal təhlükəsizlik istiqamətində həyata keçirilən sistemli tədbirlərin real nəticəsi kimi dəyərləndirir: "Məhz "Azərbaycan Respublikasının informasiya təhlükəsizliyi və kibertəhlükəsizliyə dair 2023-2027-ci illər Strategiyası"nın təsdiqlənməsi bu sahədə institusional yanaşmanın formalaşmasına mühüm təkan verib. Bu strategiya yalnız texniki müdafiə tədbirləri ilə məhdudlaşmır, eyni zamanda insan resurslarının hazırlanması, kritik informasiya infrastrukturlarının qorunması, dövlət qurumlarında kibertəhlükəsizlik idarəetməsinin gücləndirilməsi, hüquqi mexanizmlərin təkmilləşdirilməsi və beynəlxalq əməkdaşlığın genişləndirilməsi kimi mühüm istiqamətləri də əhatə edir".

Ekspertin fikrincə, xüsusilə dövlət qurumlarında kibertəhlükəsizlik üzrə institusional yanaşmanın gücləndirilməsi, monitorinq və insidentlərə operativ reaksiya imkanlarının artırılması, maarifləndirmə tədbirlərinin genişləndirilməsi və kritik infrastruktur obyektlərinin təhlükəsizlik səviyyəsinin yüksəldilməsi beynəlxalq qiymətləndirmələrdə Azərbaycanın mövqeyinə müsbət təsir göstərən əsas amillərdəndir. Bununla yanaşı, o qeyd edir ki, kibertəhlükəsizlik sahəsi dinamik və davamlı inkişaf tələb edən istiqamətdir. Qarşıdakı dövrdə süni zəka, kritik infrastruktur təhlükəsizliyi, dövlət informasiya sistemlərinin dayanıqlılığı və yerli kadr potensialının inkişafı əsas prioritet istiqamətlərdən biri olaraq qalmalıdır.

Azərbaycanın rəqəmsal gələcəyinin manifesti olan 2023-2027-ci illər strategiyası ölkəmizi addım-addım yeni bir zirvəyə daşıyır. Beynəlxalq reytinqlərdə 21 pilləlik bu inkişaf sarsılmaz icra mexanizminin reallığa çevrilməsinin bəhrəsidir. Bu yol xəritəsi Azərbaycanı qlobal kibertəhlükəsizlik cəbhəsində söz sahibi olan bir nəhəngə çevirməkdədir. Biz artıq rəqəmsal təhdidləri hələ yoldaykən zərərsizləşdirən, öz vətəndaşının kibermakandakı hər bir izini ən uca səviyyədə mühafizə edən rəqəmsal bir güc mərkəziyik və bu yolda addımlarımız tamamilə qətiyyətlidir.

**Elnurə CƏFƏROVA**

***Gözəl qoxu, xoş rayihə insanın ən təbii və ən qədim arzularından biridir. Ətir qoxusu təmizlik və gözəllik anlayışları ilə, demək olar ki, sinonimdir. Təsadüfi deyil ki, atalarımız "Təmiz yer gül qoxar", – deyiblər. Üzərimizdən xoş ətir gəlməsi, evimizdə gözəl iyin duyulması üçün təmizlik və səliqə-sahmanla yanaşı, müxtəlif parfümeriya vasitələrinə də az vəsait sərf etmirik. Çoxlarımız uzun müddət qalıcı təsir bağışlayan bir ətir axtarışına da kifayət qədər vaxt ayırırıq. Bir sözlə, gözəl qoxuya qarşı biganə qalan insan az tapılar.***



# Ağacın sədaqəti



## və ya Naxçıvanın may rayihəsi

Məişətimizə və parfümeriya aləminə daxil olan bütün bu gözəl ətirlərin mənbəyi isə yenə təbiətin özüdür. Ana təbiətin qoynunda bitən hər otun, hər çiçəyin, hər ağacın özünəməxsus ətri var. Taleyimizə Naxçıvan kimi saf havalı, fərqli iqlimli və bənzərsiz təbiətli bir diyarda doğulub boya-başa çatmaq yazıldığından, biz təbiətin nəfəsini elə yerindəcə duyub onun qoxusunu ruhumuza çəkə bilirik.

Bu qədim diyarın hər fəslinin öz ətri, öz nəfəsi var. Mən isə özümü tanıyandan bəri Naxçıvanın may rayihəsinə vurğunam. Aprelin sonu, mayın ilk günlərindən etibarən Naxçıvanın havası sözlə ifadə edilməyəcək qədər gözəl qoxur. Bu qoxunu hiss etmək üçün səhər yuxudan oyanıb pəncərəni açmaq kifayətdir. İlin bu çağında Naxçıvanın havası min bir gülün, çiçəyin ətri ilə dolur. Sanki təbiət görünməz bir ətir çələngi toxuyaraq bütün diyara yayır öz nəfəsini.

Lakin bu min bir ətrin içində elə bir çiçək var ki, onun iyi hamısından bir addım öndə dayanır. Elə bil, Naxçıvanın may nəfəsinin adı onunla başlayır. Uzun müddət həmin ətrin hansı ağaca məxsus olduğunu müəyyən edə bilmirdim. Çünki bu aylarda Naxçıvanın dağı-daşı, aranı-yaylağı gül çələngini xatırladır. Haçadağın, Əshabi-kəhfin ətəklərində açılan bənzərsiz mənzərələr insanı bir daha Yaradanın qüdrəti qarşısında heyran qoyur. Sanki al lalələrdən yer üzünə xalı sərilir, təbiət isə onu min bir rənglə ilmə-ilmə naxışlayır. Naxçıvan zirvələrinin kişi əzəməti qarşısında bu laləli yamaclar bəzəkli bir gəlini xatırladır.

Dağlardan gələn çiçək qoxusunu küləklər qanadlarına alıb arana gətirir. Orada isə zəhmətkeş insan əli ilə becərilən bağların, ağacların və güllərin ətri ona qarışır. Üstəlik, yaz yağışlarının torpaqla qovuşduğu anlarda havaya yayılan o misilsiz torpaq qoxusu da bu xoş iyə əlavə olunur. Belə bir ətir aləmində hansı çiçəyin daha üstün olduğunu seçmək çətindir.

Çox sonralar anladım ki, Naxçıvanın may rayihəsinin adı iydədir. Naxçıvan-Şərur, Naxçıvan-Babək, Naxçıvan-Şahbuz magistralları boyunca, xüsusilə də Əshabi-kəhf ziyarətgahına aparan yolun kənarında sıralanan iydə ağaclarının əhatəsində olarkən bunu bütün varlığımla hiss etdim. Təklikdə də gözəldir iydə çiçəyinin qoxusu. Amma onu fərqli edən, bir addım önə çıxaran arxasında dayanan minlərlə çiçəyin məstedici qoxusu ilə qovuşmasıdır. Başqa sözlə desək, Naxçıvanın may sehrinin açarı iydədir.

Qədim diyarın sərt iqliminə sinə gərən, əkinə yararsız torpaqlarda belə adi bir çubuqdan pöhrələnib həyata bağlanan iydə sanki bu torpağın inadkar ruhunun təcəssümüdür. Naxçıvanda bir ağacı böyütmək böyük zəhmət tələb edir. Buna görə də yerli şəraitə daha tez uyğunlaşan ağac və kollara üstünlük verilir. İydə isə neçə əsrlərdir ki, Naxçıvan təbiətinin və Naxçıvan insanının doğmasına çevrilib. Yaz boyunca xoş bahar ətri saçan çiçəyi, payızda isə min bir dərdə dərman olan meyvəsi ilə, demək olar ki, hər həyətdə özünə yer tapıb.

Mən gözümü açandan Nehrəmdəki doğma evimizin həyətində bir iydə ağacı görmüşəm. O ağac hər dörd-beş ildən bir quruyar, sonra yenidən öz kökündən pöhrələyib həyata qayıdardı. Çox keçmədən yenə çiçəkləyər, yenə bar verərdi. Hər may ayında ətrafındakı qızılgüllərlə birlikdə həyətimizi xoş ətrə qərq edərdi. Nehrəmdə, demək olar ki, hər həyətdə eyni mənzərəyə şahid olurdum.

İndi doğma evimizə yolum düşəndə gözüm yenə həmin iydə ağacını axtarır. Aradan iyirmi beş ildən çox zaman keçsə də, o ağac yenə quruyub öz dibindən pöhrə verir. Bu onun bitdiyi torpağa, həmin torpağın insanına sədaqətindən başqa bir şey deyil. Sanki iydə həyatdan əl çəkməməyi, torpağa bağlı qalmağı və yenidən dirçəlməyi öyrədir insana.



Naxçıvan insanının iydəyə sevgisi də elə həmin sədaqət qədər qüvvətlidir. Bu diyarda iydə ağaclarının əkilməsinə xüsusi önəm verilir. Yaşayış məntəqələrinə aparan yolların çoxunda sıralanmış iydə ağacları görünür. Susuzluğa davamlı olduğundan şoran və şorakət torpaqların yaşıllaşdırılmasında da bu ağacdan geniş istifadə olunur.

İlk baxışda o qədər də əzəmətli görünməyən iydə, əslində, başdan-başa şəfa mənbəyidir. Meyvəsinin tərkibində selik, zülal, aşı maddələri, "C" vitamini və müxtəlif üzvi turşular vardır. Ondan hazırlanan preparatlar mədə-bağırsaq və boğaz xəstəliklərinin müalicəsində istifadə olunur.

Söhbətə gözəl rayihədən başlayıb iydənin şəfa qaynağı olmasına qədər gəlməyim təsadüfi deyil. Çünki iydə məstedici ətri ilə ruhu oxşayan, meyvəsi ilə isə insan dərdinə məlhəm olan bir təbiət möcüzəsidir. O mənə bir az da Naxçıvan insanını xatırladır – zəhmətkeş, dözümlü, sədaqətli və torpağına bağlı insanı.

Bu günlər Naxçıvanda iydə fəslidir. Gəlin, hər səhər mayın iydə qoxulu havasını doyunca ciyərlərimizə çəkək. Unutmayaq ki, təbiblər hər bir xəstəliyin, xüsusilə də ağciyər xəstəliklərinin şəfası üçün, ilk növbədə, təmiz və bol oksigenli havanı məsləhət görürlər. Biz isə Tanrının bəxş etdiyi belə bir sərvətin içində yaşayırıq. Bu diyara gözəl havanı Yaradan bəxş edib, onu iydə ətirli edən və qoruyub yaşadan isə qədirbilən, yurdsevər insanlardır.

**Lalə HÜSEYNOVA**



# Ordubadlı məzun ölkə birincisi oldu: 300 bala gedən uğur yolu



Dövlət İmtahan Mərkəzi tərəfindən XI sinif şagirdləri üçün keçirilmiş buraxılış imtahanının nəticələri açıqlanıb. İmtahanda ölkə üzrə ən yüksək nəticəni – maksimum 300 balı Ordubad rayonunun Aşağı Əylis kənd tam orta məktəbinin məzunu Ayxan Babazadə əldə edib. Bu uğur həm ailəsində, həm də müəllimlərində, onu tanıyan hər kəsdə böyük sevinc və qürur hissi yaradıb.

Qazandığı yüksək nəticəni illərlə çəkdiyi zəhmətin bəhrəsi kimi dəyərləndirən Ayxan Babazadə bildirdi ki, bu uğurun arxasında böyük əzm, fədakarlıq və yuxusuz gecələr dayanır: "Bu yolda mənə inanan, dəstək olan ailəmə, yaxınlarıma və müəllimlərimə dərin təşəkkürümü bildirirəm. Onların etimadını doğrultduğum üçün özümü çox xoşbəxt və qürurlu hiss edirəm. Bu nəticəni əldə etmək heç də asan olmadı. Bunun üçün çox çalışdım, yuxusuz gecələr keçirdim, böyük əziyyətə qatlaşdım. Amma sonda bütün bu zəhmətin bəhrəsini görmək mənə böyük sevinc bəxş etdi".

Gələcək planlarından da danışan Ayxan bildirir ki, hüquq sahəsində təhsil almaq və hüquqşünas kimi fəaliyyət göstərmək istəyir: "İnsanların hüquqlarını qorumaq, onlara kömək etmək mənim üçün çox dəyərli və vacibdir. İnsanlar üçün faydalı olmaq mənə böyük motivasiya verir. Bundan sonra da uğurlarımın davamlı olması üçün daha çox çalışacağam. Arzum budur ki, gələcəkdə daha böyük nailiyyətlər əldə edim və seçdiyim sahədə cəmiyyətə faydalı bir insan olum".

Ayxan Babazadənin qazandığı böyük uğurun arxasında həm də ona inanan, hər addımında yanında olan ailəsinin dəstəyi dayanır. Bu sevincin ən böyük şahidləri də məhz övladlarının nailiyyətini öz qələbələri kimi yaşayan valideynləridir. Onlarla söhbət zamanı bir daha aydın olur ki, bu uğur illərlə davam edən zəhmətin, qarşılıqlı inamın və güclü ailə dəstəyinin nəticəsidir.



Atası Asiman Babayev oğlunun uğurundan böyük qürur hissi yaşadığını deyir: "Oğlumla fəxr edirəm, qürur duyuram. Onu Vətənə, millətə faydalı bir hüquqşünas kimi yetişdirmək istəyirəm. Bu həm də onun uşaqlıqdan qurduğu ən böyük arzusudur. Şükürlər olsun ki, bu gün həmin arzunun gerçəkləşməsinə bir addım daha yaxınlaşdı. Bu uğurun arxasında çox böyük zəhmət, yuxusuz gecələr və sonsuz əziyyət dayanır. Oğlum bu nəticəni qazanmaq üçün böyük fədakarlıq göstərdi. Biz də ailə olaraq bu çətin, amma şərəfli yolda daim onun yanında dayandıq, əziyyətinə şərik olduq".

Ata bildirir ki, yaşadığı sevinc sözlə ifadə olunacaq kimi deyil: "Arzu edirəm ki, bütün valideynlər bu cür qürur və sevinc hissini yaşasınlar. Eyni zamanda oğlumun müəllimlərinə dərin təşəkkürümü bildirirəm. Güclü biliyə malik müəllimlər olmasaydı, uşaqların da bu cür yüksək nəticələr əldə etməsi mümkün olmazdı". Ayxanın anası Zəhra Vəliyeva üçün isə bu uğur xüsusi mənəvi dəyər daşıyır: "Oğlumun bu nailiyyəti mənim üçün böyük bir qələbədir. Ona səninlə fəxr edirəm deməkbelə azdır".

"Sən mənim bu həyatda ən dəyərli, ən gözəl əsərimsən. Sən öz zəhmətin, əzmkarlığın və biliyinlə bütün məktəblilərə örnək oldun. Bu sevinc yalnız ailəmizin deyil, bütün müəllimlərinin və sənə dəstək olan hər kəsin sevincidir. Oğlum, səninlə sonsuz qürur duyuram. Uğurların daim olsun",– deyir sevinc göz yaşları içərisində Zəhra xanım.

Ordubad rayonunun Aşağı Əylis kənd tam orta məktəbinin məzunu Ayxan Babazadənin əldə etdiyi bu nəticə bir daha göstərir ki, məqsədə doğru inamla addımlayan, zəhmətdən çəkinməyən gənclər ən yüksək zirvələri fəth edə bilərlər. Onun uğur hekayəsi bu gün minlərlə məktəbli üçün güclü motivasiyaya, ilham mənbəyinə çevrilib.

✍ **Nail ƏSGƏROV**

# "Heydər Əliyev kuboku" uğrunda futzal turnirinə start verilib



Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən dövlət qurumlarının komandaları arasında Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 103-cü ildönümünə həsr olunmuş "Heydər Əliyev kuboku" uğrunda futzal turnirinə start verilib.

Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi, AFFA, Azərbaycan Futzal Federasiyası və Naxçıvan Futbol Federasiyasının birgə təşkil etdiyi yarışda 20 komanda iştirak edir.

Turnirin açılış mərasimi mayın 16-da İlham Əliyev adına Olimpiya İdman Kompleksində keçirilib. Tədbirdə çıxış edənlər yarışın sağlam həyat tərzinin təşviqi, idmanda kütləviliyin artırılması və dövlət qurumları arasında əməkdaşlığın möhkəmləndirilməsi baxımından əhəmiyyətini vurğulayıblar.

İlk oyunda Ekologiya və Təbii Sərvətlər Nazirliyinin komandası ilə "Naxçıvan Muxtar Respublikası Televiziya və Radio Verilişləri" QSC qarşılaşıb. Görüş teleradio təmsilçisinin 5:2 hesablı qələbəsi ilə başa çatıb.

Qeyd edək ki, komandalar 4 qrupa bölünüb. Qrup mərhələsindən sonra ən yaxşı nəticə göstərən komandalar "play-off" mərhələsində mübarizəni davam etdirəcək. Yarışın qaliblərinə diplom, medal və hədiyyələr, çempion komandaya isə "Heydər Əliyev kuboku" təqdim olunacaq.

## Naxçıvan Dövlət Universiteti 2026-cı il üçün doktorant hazırlığı üzrə aşağıdakı ixtisaslara qəbul elan edir

| İxtisasın şifri | Elm sahələri və ixtisaslar | Fəlsəfə doktoru proqramı üzrə – Doktorantura: Cəmi: | Dövlət sifarişli və ödənişli əsaslarla o cümlədən: əyani | qiyabi |
|---|---|---|---|---|
| 2303.01 | Qeyri-üzvi kimya | 1 | | 1 |
| 2306.01 | Üzvi kimya | 1 | | 1 |
| 2307.01 | Fiziki kimya | 1 | | 1 |
| 2417.01 | Botanika | 1 | | 1 |
| 3213.01 | Cərrahlıq | 1 | | 1 |
| 3226.01 | Stomatologiya | 1 | | 1 |
| 3338.01 | Sistemli analiz, idarəetmə və informasiyanın işlənməsi (sahələr üzrə) | 1 | 1 | |
| 5310.01 | Dünya iqtisadiyyatı | 1 | 1 | |
| 5311.01 | Müəssisələrin təşkili və idarə olunması | 1 | 1 | |
| 5312.01 | Sahə iqtisadiyyatı | 1 | 1 | |
| 5401.01 | İqtisadi coğrafiya | 1 | | 1 |
| 5503.02 | Vətən tarixi | 1 | | 1 |
| 5505.02 | Arxeologiya | 1 | | 1 |
| 5608.01 | Mülki hüquq; sahibkarlıq hüququ, ailə hüququ, beynəlxalq xüsusi hüquq | 1 | | 1 |
| 5706.01 | Azərbaycan dili | 1 | | 1 |
| 5708.01 | German dilləri | 1 | | 1 |
| 5716.01 | Azərbaycan ədəbiyyatı | 1 | | 1 |
| 5720.01 | Jurnalistika | 1 | | 1 |
| 5801.01 | Təlim və tərbiyənin nəzəriyyəsi və metodikası (təhsilin sahələri və səviyyələri üzrə) | 1 | 1 | |
| 5802.01 | Təhsilin təşkili və planlaşdırılması | 1 | | 1 |
| 5804.01 | Ümumi pedaqogika, pedaqogikanın və təhsilin tarixi | 1 | | 1 |
| 6401.01 | Memarlıq nəzəriyyəsi və tarixi abidələrin bərpası və rekonstruksiyası | 1 | | 1 |
| | **Cəmi:** | **22** | **5** | **17** |

Doktoranturaya sənəd qəbulu "Təhsil Mərkəzləşdirilmiş İnformasiya Sistemi" (TMİS) vasitəsilə elektron qaydada (*portal.edu.az* vasitəsilə 19.05.2026-cı il tarixdən 3 həftə müddətində) həyata keçiriləcək.

*Əlavə məlumat üçün əlaqə: Naxçıvan Dövlət Universiteti Magistratura və doktorantura mərkəzi*
*E-mail: tabrizabaghirova@ndu.edu.az*
*Tel: (+994 36) 544-08-61 (daxili: 3300)*

## Elan

Hörmətli səhmdarlar, sizi Culfa "Əbrəqunus Şərab" ASC-nin növbəti ümumi yığıncağına dəvət edirik. Ümumi yığıncaq 17 iyun 2026-cı il tarixdə, saat $11^{00}$-da Əbrəqunus kəndində yerləşən cəmiyyətin inzibati binasında keçiriləcəkdir.

Gündəlikdə duran məsələlər:

*1. 2025-ci ilin yekunlarına dair cəmiyyətin maliyyə hesabatının təsdiq edilməsi.*

*2. Cəmiyyətin fəaliyyət planının təsdiq edilməsi.*

*3. Gündəlikdə duran digər məsələlər.*

***

Hörmətli səhmdarlar, sizi Naxçıvan "Tikiş" ASC-nin növbəti ümumi yığıncağına dəvət edirik. Ümumi yığıncaq 22 iyun 2026-cı il tarixdə, saat $11^{00}$-da Naxçıvan şəhərində yerləşən cəmiyyətin inzibati binasında keçiriləcəkdir.

Gündəlikdə duran məsələlər:

*1. 2025-ci ilin yekunlarına dair cəmiyyətin maliyyə hesabatının təsdiq edilməsi.*

*2. Cəmiyyətin fəaliyyət planının təsdiq edilməsi.*

*3. Gündəlikdə duran digər məsələlər.*

***

Hörmətli səhmdarlar, sizi Şahbuz "Mehmanxana" ASC-nin növbəti ümumi yığıncağına dəvət edirik. Ümumi yığıncaq 19 iyun 2026-cı il tarixdə, saat $11^{00}$-da Şahbuz rayonunda yerləşən cəmiyyətin inzibati binasında keçiriləcəkdir.

Gündəlikdə duran məsələlər:

*1. 2025-ci ilin yekunlarına dair cəmiyyətin maliyyə hesabatının təsdiq edilməsi.*

*2. Cəmiyyətin fəaliyyət planının təsdiq edilməsi.*

*3. Gündəlikdə duran digər məsələlər.*

## *Bildiriş*

Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyinin tabeliyində "Naxçıvan Aqrar İstehsalat, Tədarük və Təchizat" Açıq Səhmdar Cəmiyyəti ləğv edilmişdir.

Ləğv prosesi ilə əlaqədar debitor və kreditorlardan öhdəlikləri ilə bağlı müraciət etmələri xahiş olunur.

***

Naxçıvan Muxtar Respublikası 10 aprel 2026-cı il tarixli 17-VII QN nömrəli Qanununa əsasən Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) təsisatı ləğv edilmişdir.

Kreditorlar öz tələblərini elan dərc edildiyi gündən 60 gün müddətində aşağıdakı ünvana təqdim edə bilərlər:

Ləğvedici: Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyi

***Ünvan: Naxçıvan şəhəri, Heydər Əliyev prospekti 6***
***Əlaqə telefonu: 036-544-00-60***
***E-mail: info@neconomy.gov.az***

## *İtmişdir*

Babək rayonu, Vayxır kənd sakini Məmmədova Radə Kamil qızının adına olan JN-$10^{A}$ nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Yengicə kənd sakini Seyidov Sahib Nuru oğlunun adına verilmiş JN-$1071^{A}$ nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Naxçıvan şəhəri, Qaraçuq kənd sakini Məmiyev Məhərrəm İsmayıl oğlunun adına olan A-018171 inventar nömrəli torpaq sahəsinin plan və ölçüsü itdiyindən etibarsız sayılır.

***

Culfa rayonu, Yaycı kəndində yaşamış Mürsəlov Qurban Cəfər oğlunun adına olan JN-1675 nömrəli dövlət aktı itdiyindən etibarsız sayılır.

***

Kəngərli rayonu, Şahtaxtı kənd sakini Məmmədli Habil Kamil oğlunun adına olan JN-$649^{A}$ nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Kəngərli rayonu, Qarabağlar kənd sakini Əsgərov Ədalət Nəsib oğlunun adına olan JN-580 nömrəli dövlət aktı itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Düdəngə kəndində yaşamış Seyidov Sabir Mirhüseyn oğluna məxsus 102013004551 reyestr nömrəli plan-ölçü və hüquqların dövlət qeydiyyatından çıxarış itdiyindən etibarsız sayılır.

***

Naxçıvan şəhəri, Heydər Əliyev prospekti, ev 37 ünvanında Nəbiyeva Cəmilə Murtuz qızına məxsus 49 nömrəli mənzilin texniki pasportu itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Həmzəli kənd sakini Cəfərov Qərib Hüseyn oğluna məxsus JN-112 nömrəli torpağa mülkiyyət hüququna dair dövlət aktı itdiyindən etibarsız sayılır.

***

Babək rayonu, Badaşqan kənd sakini Babayeva Gülnaz Əliabbas qızının adına olan JN-$42^{A}$ nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Siyaqut kənd sakini Xudiyev Oktay Bağır oğluna məxsus $197^{A}$ nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

ŞƏRQ QAPISI
Baş redaktor: RƏMZİ TAHİRLİ

*Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 14.*
*Telefonlar: Məsul katib: 545-62-47*
*Şöbələr: 545-81-44, 545-51-18*
*Mühbirlər: 545-75-21, Faks: 544-52-52*
E-mail: *info@serqqapisi.gov.az*

Qeydiyyat №: 575
*Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır*
*Vöen: 0200065441*

Çapa imzalanmışdır 00:00
Tiraj: 550. Sifariş № 102

*Nömrəyə məsul:* Rafiq Təhməz, Səmayə Rəsulova, Zəhra Vəliyeva
*Dizayner:* Həbibə Allahverdiyeva
*Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.*